

Milli azadlıqdan şirin nemət yoxdur!



# Bir sözü ilə xalq ayağa qalxdı!

Bax səh. 4

## Vətən müharibəsinin 8-ci günü


mobile.twitter.com/a

Tweet

İlham Əliyev
@azpresident

Bu gün Azərbaycan ordusu Cəbrayıl şəhərini və rayonunun bir neçə kəndini işğaldan azad etmişdir. Eşq olsun Azərbaycan ordusuna! Qarabağ Azərbaycandır!

Translate Tweet

4:39 PM · Oct 4, 2020 · Twitter Web App

767 Retweets 1.5K Quote Tweets 2.2K Likes


# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. 4 oktyabr 2023-cü il, çərşənbə / № 180 (6524). Yeni Azərbaycan Partiyasının orqanı. Qiyməti 40 qəpik


# Reinteqrasiyanın detalları bəllidir




Bax səh. 2

## 04.10.2020

•Prezident İlham Əliyev Cəbrayıl şəhərinin və Cəbrayıl rayonunun doqquz kəndinin işğaldan azad olunması ilə bağlı Azərbaycan xalqına müraciət edib.

• Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Əl-Ərəbiyə" televiziya kanalına müsahibə verib.

• Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun 2010-cu il iyunun 18-də təkbaşına döyüşərək xeyli sayda düşmən qüvvəsini məhv etdiyi posta Azərbaycan Bayrağı sancılıb.

• Ermənistan silahlı qüvvələri Gəncə şəhərində mülki əhalinin sıx yaşadığı məntəqələri ağır artilleriyadan atəşə tutub. Nəticədə bir nəfər həlak olub, 32 nəfər xəsarət alıb. İnfrastruktura və tarixi tikililərə ciddi ziyan dəyib.

• Baş Prokurorluğun məlumatına əsasən, Ermənistan silahlı qüvvələrinin atəşi nəticəsində Beyləqan şəhərində iki dinc sakin həlak olub, iki nəfər isə xəsarət alıb. Bununla da həlak olan mülki şəxslərin sayı 22-yə, xəsarət alanların sayı 73-ə çatıb.

• Düşmən Xızı və Abşeron bölgəsinə iki ədəd 300 kilometr məsafəli orta mənzilli raket atıb.

# Təhlükəsizliyin təmini... Dövlətimizin diqqət mərkəzindədir

Bax səh. 3



# Günün mübarək, Cəbrayıl!

Bax səh. 3

## 10 il dünya kosmik ailəsinin sıralarında

Oktyabrın 2-dən etibarən dünya kosmik ailəsinin diqqəti 74-cü Beynəlxalq Astronavtika Konqresinin keçirildiyi Bakıya yönəlib. Bu möhtəşəm tədbirə dünyanın 100-dən çox ölkəsindən təxminən 5 min təmsilçi qatılıb. Konqresin ölkəmizdə keçirilməsi barədə qərar 2019-cu ilin oktyabrında ABŞ-ın paytaxtı Vaşinqtonda qəbul edilib. Belə mötəbər tədbirə ev sahibliyi hüququnun Azərbaycana verilməsi beynəlxalq səviyyədə ölkəmizə artan inamın ifadəsidir.

**Azərbaycanın gələcəyə baxışı**

Azərbaycan müasir dövlət kimi inkişaf edir. Buna uyğun olaraq da ölkəmiz özünün yeni inkişaf paradiqmalarını müəyyənləşdirib ki, kosmik sahə də bu sırada yer alır...

Bax səh. 2

## "Etnik təmizləmə" kod adlı təbliğat iflasa uğrayır

24 saatlıq antiterror tədbirlərindən dərhal sonra yeni məkrli planlar quran Ermənistanın "etnik təmizləmə" təbliğatı da fiaskoya uğramaqdadır. Bu ölkənin baş naziri Paşinyan öz xoşu ilə, könüllü şəkildə Qarabağı tərk edən ermənilərin Ermənistana keçidini "etnik təmizləmə" kimi "dəyərləndirməklə" Azərbaycana qarşı yeni beynəlxalq təzyiq kampaniyasına start verməyə niyyətində idi. Amma günlər keçdikcə bu planlar "suya düşür". Erməni baş nazirin yalan iddiaları nəinki "ayaq tutub yerimir", hətta böyük dövlətlər tərəfindən açıq kontekstdə təkzib olunur. Məsələn, ABŞ Dövlət Departamentinin sözçüsü...

Bax səh. 5

## Türkün gücünü hər kəs gördü!

Oktyabrın 2-də Bakı Konqres Mərkəzində 74-cü Beynəlxalq Astronavtika Konqresinin açılış mərasimi keçirilib. Tədbirdə 100-dən artıq ölkəni təmsil edən 5000-dən çox nümayəndə iştirak edib.

İştirakçılar arasında TEKNOFEST-in İdarə Heyətinin sədri, "Baykar" şirkətinin texniki direktoru Selcuk Bayraktar da yer alıb. S.Bayraktar 74-cü Beynəlxalq Astronavtika Konqresi çərçivəsində "Akıncı" pilotsuz uçuş aparatının kiçikölçülü maketini dövlətimizin başçısına hədiyyə edib. Qeyd edək ki, 2022-ci il mayın 28-də Bakıda ilk dəfə keçirilən "TEKNOFEST Azərbaycan" Aerokosmik və Texnologiya Festivalında Azərbaycan Prezidenti İlham Əliyev Türkiyə Prezidenti...

Bax səh. 5

## Zəngəzur dəhlizi açılacaq!

Zəngəzur dəhlizinin açılması məsələsi gündəmin əsas mövzularından biridir. Xüsusilə, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Naxçıvandan qayıtdıqdan sonra verdiyi bəyanat xüsusilə diqqəti cəlb edir. Belə ki, Rəcəb Tayyib Ərdoğan bəyan edib ki, bu dəhliz Türkiyə və Azərbaycan üçün çox önəmlidir və tamamlanması vacib olan strateji məsələdir. "Türkiyə ilə Azərbaycan arasında qardaşlıq daha da möhkəmlənəcək. İrandan müsbət impulslar gəlir və bu, ümidvericidir"- deyən Türkiyə Prezidenti qeyd edib ki, Ermənistan bu yolu açmasa, İran ərazisindən keçəcək. Onun sözlərinə görə, İran indi buna müsbət baxır və ona görə də İran ərazisindən Azərbaycana daxil olmaq mümkündür...

Bax səh. 6

## Cənubi Qafqazda sülh istəməyənlər...

Qarabağda keçirilən lokal antiterror tədbirləri nəticəsində suverenliyimiz tam təmin edildikdən sonra müəyyən beynəlxalq dairələr ölkəmizə qarşı qərəzli kampaniyaya başlayıblar. Həmin dairələr dövlətimizi "etnik təmizləmə"də ittiham etməyə çalışsalar da, konkret faktlar ortaya qoya bilmirlər. Çünki Qarabağın erməni sakinləri könüllü olaraq Ermənistana gedib. Azərbaycan dövləti onlara heç bir təzyiq göstərməyib, əksinə qanunlarımız çərçivəsində vətəndaşlıq verməyə hazır olduğunu bəyan edib.

**Avropa Parlamentindən ənənəvi qərəz**

"Etnik təmizləmə" iddiasının əsassız olması faktı Qarabağda monitorinq aparan BMT...

Bax səh. 6




# Rusiya ilə bütün körpülər yandırıldı

Bax səh. 7

# Moskvanın İrəvan rəhbərliyinə sualları var

# Almaniya Federativ Respublikasının Prezidenti Frank-Valter Ştaynmayerə

Hörmətli cənab Prezident,

3 Oktyabr - Alman Birliyi Günü münasibətilə Sizə və bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi çatdırıram.

Biz Azərbaycan ilə Almaniya arasında dostluq və əməkdaşlıq münasibətlərinin inkişafına böyük əhəmiyyət veririk. Ölkələrimizin siyasi, iqtisadi və humanitar sahələrdə fəal və səmərəli əməkdaşlığı məmnunluq doğurur.

Azərbaycan Almaniya ilə əlaqələri möhkəmləndirmək və qarşılıqlı faydalı əməkdaşlığı davam etdirmək əzmindədir. Əminəm ki, həm dövlətlərarası münasibətlərimiz, həm də Avropa İttifaqı çərçivəsində qarşılıqlı maraq doğuran qarşılıqlı fəaliyyətimiz bundan sonra ardıcıl şəkildə inkişaf edəcək və möhkəmlənəcəkdir.

Belə bir əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost Almaniya xalqına daim əmin-amanlıq və rifah diləyirəm.

Hörmətlə,

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 30 sentyabr 2023-cü il**

# Koreya Respublikasının Prezidenti Yun Sok Yola

Hörmətli cənab Prezident,

Koreya Respublikasının milli bayramı münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycan-Koreya dostluq və əməkdaşlıq münasibətləri xoş ənənələrə malikdir. Dövlətlərarası əlaqələrimizin inkişaf dinamikası, qarşılıqlı maraq doğuran əməkdaşlığımızın genişlənməsi bizi sevindirir.

Koreya şirkətləri uzun illərdən bəri Azərbaycanda çox uğurla fəaliyyət göstərirlər. Ölkənizi təmsil edən şirkətlər işğaldan azad edilmiş torpaqlarımızda aparılan bərpa və yenidənqurma işlərinə istehsal etdikləri qabaqcıl və müasir texnologiyalar vasitəsilə töhfə verə bilərlər. İnanıram ki, mövcud imkanlardan yararlanaraq birgə səylərimizlə böyük potensiala malik olan münasibətlərimizi və səmərəli əməkdaşlığımızı bundan sonra da dərinləşdirəcəyik.

Belə bir bayram günündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Koreya Respublikasına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

Hörmətlə,

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

# İraq Respublikasının Prezidenti Əbdüllətif Camal Rəşidə

Hörmətli cənab Prezident,

İraq Respublikasının milli bayramı münasibətilə Sizi və bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edir və ən xoş arzularımı çatdırıram.

İnanıram ki, Azərbaycan-İraq münasibətləri birgə səylərimizlə bundan sonra da dostluq və əməkdaşlıq məcrasında inkişaf edəcək və möhkəmlənəcəkdir.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, işlərinizdə müvəffəqiyyətlər, dost İraq xalqına daim əmin-amanlıq və rifah arzulayıram.

Hörmətlə,

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

# 10 il dünya kosmik ailəsinin sıralarında

*Mübariz ABDULLAYEV*

Oktyabrın 2-dən etibarən dünya kosmik ailəsinin diqqəti 74-cü Beynəlxalq Astronavtika Konqresinin keçirildiyi Bakıya yönəlib. Bu möhtəşəm tədbirə dünyanın 100-dən çox ölkəsindən təxminən 5 min təmsilçi qatılıb. Konqresin ölkəmizdə keçirilməsi barədə qərar 2019-cu ilin oktyabrında ABŞ-ın paytaxtı Vaşinqtonda qəbul edilib. Belə mötəbər tədbirə ev sahibliyi hüququnun Azərbaycana verilməsi beynəlxalq səviyyədə ölkəmizə artan inamın ifadəsidir.

**Azərbaycanın gələcəyə baxışı**

Azərbaycan müasir dövlət kimi inkişaf edir. Buna uyğun olaraq da ölkəmiz özünün yeni inkişaf paradiqmalarını müəyyənləşdirib ki, kosmik sahə də bu sırada yer alır. Prezident İlham Əliyev 74-cü Beynəlxalq Astronavtika Konqresinin açılış mərasimindəki çıxışında respublikamızın kosmik sahənin inkişafı ilə bağlı hədəflərini bir daha diqqətə çatdıraraq vurğulayıb: “Azərbaycan on ildən artıq müddət əvvəl beynəlxalq kosmik ailənin üzvü olub. Bu gün ikisi telekommunikasiya, biri isə Yer səthinin müşahidəsi peykinə malik olaraq biz Azərbaycanda kosmik sənayenin inkişafını davam etdiririk. Onu da bildirim ki, bu üç peyk azərbaycanlı mütəxəssislər tərəfindən idarə olunur və onlar təkcə Azərbaycana deyil, 45-dən artıq ölkəyə xidmət göstərirlər.

Bakıda keçirilən bu Konqres ölkəmizin kosmik sənaye, müasir texnologiya və innovasiya sektorlarının inkişafına və onun müasirləşdirilməsinə mütləq yeni təkan verəcəkdir. Müasirləşdirilmə sözü bizim gələcəklə bağlı baxışımızı, gündəliyimizi və planlarımızı səciyyələndirir”.

Azərbaycan MDB məkanında kosmosa peyklər buraxan azsaylı ölkələr sırasında yer alır. Xatırladaq ki, birinci süni peykimiz olan “Azerspace-1” 2013-cü il fevral ayının 8-də Cənubi Amerikada yerləşən Kuru kosmodromundan geostasionar orbitə çıxarılıb. Əhatə dairəsi Avropa, Afrika, Mərkəzi Asiya, Yaxın Şərq, Qafqaz olan peykin imkanlarının 20 faizi Azərbaycanın tələbatını ödəmək, qalan 80 faizi isə kommersiya məqsədi daşıyır. Dəyəri 233 milyon dollar olan peykin istismar müddəti ən azı 15 ildir.




Azərbaycanın 2014-cü il iyunun 30-da orbitə göndərdiyi ikinci peyk isə “Azersky” adlı müşahidə peykidir. Dəyəri 157 milyon avro olan “Azersky” əsasən Azərbaycanın müdafiə və təhlükəsizliyinə xidmət edir.

Sayca üçüncü peykimiz sayılan “Azerspace-2” isə 2018-ci il sentyabrın 26-da yenə də Kuru kosmodromundan orbitə buraxılıb. Peykin əhatə dairəsi Avropa, Yaxın Şərq, Tropik Afrika, Mərkəzi və Cənubi Asiyadır. 190 milyon dollara başa gələn “Azerspace-2”nin istismar müddəti 20 ildir.

Əlamətdar haldır ki, hazırda Azərbaycan həm də innovativ məhsulların, o cümlədən də kosmik xidmətlərin ixracını həyata keçirir. Qürurverici haldır ki, hazırda “Azərkosmos”un ixrac portfelində ABŞ, Böyük Britaniya, Fransa, Almaniya, Malayziya kimi dünyanın aparıcı ölkələrinin qabaqcıl şirkətləri təmsil olunurlar.

**Aya və Marsa missiya göndərilməsi planları**

Azərbaycan Aya və Marsa 2030-cu ildə missiya göndərməyi düşünür. Bu sözləri “SPACE 2030: Qlobal Kosmos İqtisadiyyatında Siyasət və Strategiyalar” mövzusunda sessiyada çıxışında Azərbaycan Kosmik Agentliyinin (“Azərkosmos”) İdarə Heyətinin sədri Saməddin Əsədov deyib.

S.Əsədov bildirib ki, Azərbaycan son 10 ildə kosmik sahənin inkişafına 600 milyon dollar investisiya yönləndirib. Sədr qeyd edib ki, bu gün İsrail ilə kosmik peykin orbitə çıxarılması ilə bağlı bağlanan müqavilə ilə yanaşı, Azərbaycan hökuməti kosmos proqramını davam etdirəcək.

# Dayanıqlı inkişaf

*Mübariz FEYİZLİ*

Azərbaycan uğurlu inkişaf modelinə malik olan ölkədir. Son 20 ildə bütün dünya üzrə Azərbaycan kimi dinamik iqtisadi inkişaf templəri ilə irəliləyən dövlətlərin sayı çox az olub. Prezident İlham Əliyevin qətiyyətli siyasi iradəsi ilə reallaşdırılan ardıcıl islahatlar respublikamızın iqtisadi və bu əsasda siyasi müstəqilliyini tam təmin edib.

**ÜDM-də dörd dəfə artım**

Azərbaycanın bəhs olunan dövrdə iqtisadi inkişaf sahəsində qazandığı uğurlar nikbinlik üçün ciddi əsaslar verir. Prezident İlham Əliyev 74-cü Beynəlxalq Astronavtika Konqresinin açılış mərasimindəki çıxışında əldə olunan nailiyyətləri böyük məmnunluq hissi ilə qonaqların diqqətinə çatdırıb. “Son 20 il ərzində, ümumi daxili məhsul dörd dəfə artıb, büdcə gəlirlərimiz 30 dəfədən çox artıb, xarici ticarət dövriyyəsi on dəfədən çox artıb”, - deyə dövlətimizin başçısı vurğulayıb.

Sirr deyil ki, hazırda ayrı-ayrı ölkələr beynəlxalq maliyyə qurumlarından asılı vəziyyətdədirlər. Azərbaycan isə sosial-iqtisadi inkişaf üçün zəruri olan etibarlı “maliyyə yastığı”na malik olan ölkədir. Bunun nəticəsidir ki, respublikamız hələ bir neçə il bundan əvvəl xarici borc öhdəliyinin azaldılması strategiyası qəbul edib. Ölkənin xarici borcu ilbəil azaldılır. Hazırda respublikamızın xarici borc öhdəliyi ümumi daxili məhsulun təxminən 10 faizini təşkil edir. Prezident İlham Əliyev bu rəqəmin daha da kiçiləcəyini konqres iştirakçılarının diqqətinə çatdıraraq vurğulayıb: “2024-cü ilin sonuna qədər, planlarımıza uyğun olaraq, onun həcmi ümumi daxili məhsulun təxminən 7-7,5 faizini təşkil edəcək. Azərbaycanın xarici valyuta ehtiyatları birbaşa xarici borcumuzu on dəfə üstələyir. Başqa sözlə, əgər lazım gələrsə, biz bütün borclarımızı bir neçə ay ərzində ödəyə bilərik”.

**Əlverişli sərmayə mühiti**

Ölkələrin sosial-iqtisadi inkişafı müxtəlif sahələrə sərmayə qoyuluşunun həcmindən bilavasitə asılıdır. Ölkəmizdə sərmayə mühiti kifayət qədər münbitdir. Uzunmüddətli daxili sabitlik, ardıcıllıqla həyata keçirilən islahatlar, qanunvericilik bazasının möhkəmləndirilməsi, korrupsiyanın və digər neqativ halların əhatə dairəsinin kiçildilməsi, idarəçilikdə informasiya-kommunikasiya texnologiyalarının tətbiqi, təşviq mexanizmlərinin işə salınması və bu kimi digər amillər respublikamızda investisiya qoyuluşunun genişlənməsini şərtləndirir. Əlamətdar haldır ki, ölkəmizdə dövlət-özəl sektor tərəfdaşlığı da getdikcə genişənir. Ayrı-ayrı layihələrin icrasına dövlət və özəl şirkətlər birgə sərmayələr yönəldirlər. “Biz çox müsbət sərmayə mühitini nəinki enerji, o cümlədən digər sektorlarda yaratmışıq. Beləliklə, son 20 il ərzindəki sərmayələrin ümumi həcmi 300 milyard ABŞ dollarından çoxdur və onlardan 190 milyard dolları qeyri-enerji sektoruna yatırılmışdır”, - deyə dövlətimizin başçısı bildirib.

**Yoxsulluğun aşağı salınması**

Azərbaycan öz inkişafını sosial dövlət fəlsəfəsi əsasında qurub. Belə dərin məzmuunlu sosial siyasətin təzahürlərini həmçinin ölkə üzrə yoxsulluğun azalmasının timsalında da izləmək mümkündür. Azərbaycanın bu sahədə yaxşı nəticələr qazandığını vurğulayan Prezident İlham Əliyev deyib: “Müstəqilliyimizin əvvəlində üzləşdiyimiz böyük çağırışlardan biri məlum olan yoxsulluq idi. 20 il əvvəl yoxsulluq şəraitində yaşayan insanların sayı 50 faizə yaxın idi. Hazırda isə yoxsulluq 5,5 faiz təşkil edir və onu göstərir ki, hasil etdiyimiz və beynəlxalq bazarlara çıxardığımız təbii sərvətlər lazımi qaydada idarə olunub. Milli sərvətlərin bərabər paylanması bu gün beynəlxalq ekspertlər və ən vacibi isə, Azərbaycan xalqı tərəfindən qeyd olunur. Bir sözlə, bütün bunlar əslində, göstərir ki, ölkə çox dayanıqlı vəziyyətdədir”.

# Reinteqrasiyanın detalları bəllidir

## Hər bir vətəndaş bərabər hüquqlara malikdir

Qarabağda yaşayan erməni sakinlərin reinteqrasiyası uğurla davam edir. Bununla bağlı artıq Yevlaxda və Xocalıda bir neçə təmas olub. Məsələ ilə bağlı məsul şəxs Ramin Məmmədov görüşlərdə Azərbaycan Respublikasının reinteqrasiyaya dair planlarını təqdim edib və onun ətrafında müzakirələr aparılıb. Reinteqrasiya Azərbaycan Respublikasının ərazi bütövlüyü və suverenliyi çərçivəsində Azərbaycan Respublikasının Konstitusiyası, qanunları və beynəlxalq öhdəlikləri əsasında həyata keçirilir. Etnik, dini və ya dil mənsubiyyətindən asılı olmayaraq, hər kəsin hüquq və azadlıqlarının bərabərliyinə, o cümlədən hər kəsin təhlükəsizliyinə təminat verilir.

## İdarəetmə xüsusi nümayəndəliklər vasitəsilə həyata keçirilir...

Azərbaycanın Prezident Administrasiyasının məsələ ilə bağlı açıqlamasında da bildirilir ki, hüquqi və idarəetmə sahəsi üzrə inteqrasiya özündə bir sıra məsələləri ehtiva edir. Erməni sakinlərin yaşadıqları ərazilərdə idarəetmə Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəlikləri vasitəsilə həyata keçirilir. Sakinlər xüsusi nümayəndəliklərin işinə cəlb oluna bilər. Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq, seçkilər vasitəsilə bələdiyyələr formalaşdırılır. Sakinlərin vətəndaşlıq məsələləri Azərbaycan Respublikasının Konstitusiyasına və qanunvericiliyinə uyğun olaraq, müvafiq prosedurlar əsasında həyata keçirilir.

## Cəmiyyətin harmonik, sabit inkişafının təmin edilməsi

Ümumiyyətlə, müasir dövrdə ictimai həyatın demokratikləşdirilməsi, vətəndaş cəmiyyətinin və bütövlükdə cəmiyyətin harmonik, sabit inkişafının təmin edilməsi hüquqi dövlət quruculuğunun əsas istiqamətləri sayılır. Bu gün Azərbaycanda baş verən tərəqqi proseslərinin, novatorluğun, islahatların lokomotivi qismində çıxış edən hüquqi dövlət anlayışı bütövlükdə sabit inkişafın əsas təməl prinsipidir. Yerləşdiyi Cənubi Qafqaz regionunun lider dövlətinə çevrilən Azərbaycanda hüquqi dövlət quruculuğu prosesinin uğurları saysızdır. Azərbaycan Respublikası müstəqillik qazandığı dövrdən indiyə kimi insan hüquq və azadlıqlarının təmin olunması, vətəndaş cəmiyyətinin formalaşdırılması və daha da təkmilləşdirilməsi istiqamətində çox böyük addımlar atıb. Nəticə etibarı ilə, ölkəmizdə davamlı hal almış bu proseslər demokratikləşmə prosesinin də operativ və effektiv səciyyə almasını şərtləndirib. Odur ki, bütün bunların fonunda Azərbaycan demokratik inkişaf yolunda qətiyyətlə irəliləyir.

## Hüquqi müstəvidə...




Dövlətimiz hələ II Qarabağ müharibəsindən sonra, sülhyaratma missiyaları vasitəsilə Ermənistanla münasibətlərin normallaşması istiqamətində davam edən danışıqlar zamanı bəyan etmişdi ki, Qarabağda yaşayan ermənilər Azərbaycan vətəndaşlığını qəbul edəcəyi halda konstitusion hüquqlara malik olacaqlar. Azərbaycan hüquqa dövlətdir və ölkəmizdə bütün vətəndaşlar qanun qarşısında eyni hüquqa, bərabər imtiyazlara malikdir. Azərbaycan vətəndaşlığını qəbul edərək Azərbaycanın qanunlarına tabe olacaq erməni vətəndaşları da konstitusiya ilə tanınan bütün hüquqlardan sərbəst şəkildə istifadə etmək haqqı qazanırlar. Açıqlamada vurğulandığı kimi, erməni sakinlər xüsusi nümayəndəliklərin işinə cəlb oluna bilərlər. Qanunun aliliyinin təmin olunduğu ölkəmizdə hər bir vətəndaşı dövlətin inkişafına öz töhfəsini verməlidir. Bunun üçün isə qanunlara tabe olmaq, müvafiq hüquqlardan yalnız və yalnız dövlətin inkişafı üçün istifadə etmək gərəkdir.

## Bütün hüquqlardan sərbəst şəkildə istifadə haqqı...

*P.SADAYOĞLU*



# Vətən müharibəsinin ilk böyük qələbəsi

*Günel ABBAS*

Vətən müharibəsində qazanılan böyük Qələbə son 200 illik tariximizin ən parlaq səhifəsidir. Bu Zəfərədək biz daim torpaq itkilərinə məruz qalmışıq. İmperialist güc mərkəzlərinin məkrli ssenariləri əsasında tarixi Azərbaycan ərazilərində indiki oyuncaq Ermənistan dövləti yaradılıb. Yalnız Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük müharibədə qazanılan şanlı Qələbə sayəsində biz torpaq itkilərinə son qoyduq və 30 il ərzində işğal altında qalmış ərazilərimizi geri qaytarmağa nail olduq. İki yüzillikdə ilk dəfə idi ki, biz torpaq itkisinə məruz qalmadıq, itirdiklərimizi geri qaytardıq. Bu qələbə bütün dünyada yaşayan azərbaycanlılar üçün sonsuz qürur mənbəyidir. Gələcək zəfərlərimiz naminə Vətən müharibəsində qazandığımız Qələbə əbədiləşdirilir və ölkəmizin ərazi bütövlüyünü öz qanları, canları ilə təmin edən igid hərbiçilərimizin döyüşlərdə göstərdikləri qəhrəmanlıqlar layiqli şəkildə təbliğ olunur.

Bu kontekstdə Prezident İlham Əliyevin imzaladığı müvafiq Sərəncamla işğaldan azad edilmiş ərazilər üzrə şəhər günlərinin təsis edilməsi də xüsusi önəm daşıyır. Üç onillik ərzində düşmənin nəzarəti altında qalan və tamamilə dağıdılan hər şəhərin, hər kəndin və yüksəkliyin geri qaytarılması bir qəhrəmanlıq dastanıdır. Düşmən bir neçə mərhələdə keçilməsi mümkünsüz görünən istehkamlar qurmuşdu, ətrafdakı yüksəkliklərin də böyük əksəriyyəti qarşı tərəfin nəzarətində idi. Ancaq Azərbaycan hərbiçiləri mümkünsüz görünəni mümkün etdilər. Prezident İlham Əliyevin imzaladığı Sərəncama əsasən hər il aşağıdakı günlər işğaldan azad edilmiş ərazilərdəki şəhərlərin günləri kimi təntənəli şəkildə qeyd olunacaq.

**Cəbrayılda dalğalanan Azərbaycan bayrağı**

Bu gün - oktyabrın 4-ü Cəbrayıl şəhəri günüdür. Üç il əvvəl bu gün Cəbrayıl şəhəri Ermənistan Silahlı Qüvvələrinin işğalından azad edilib.

2020-ci ilin oktyabrın 4-də Cəbrayıl şəhəri ilə yanaşı, rayonun daha 9 kəndi - Karxulu, Şükürbəyli, Çərəkən, Daşkəsən, Horovlu, Mahmudlu, Cəfərabad, Yuxarı Maralyan və Dəjəl düşmən işğalından azad olunub. Azad olunanın ərazilərə Azərbaycanın üçrəngli şanlı bayrağı sancılıb.

Cəbrayıl rayonu 1993-cü il avqustun 23-də Ermənistan Silahlı Qüvvələri tərəfindən işğal edilmişdi. İşğal zamanı rayon 1 şəhər, 4 qəsəbə və 97 kənddən ibarət idi. İşğal dövründə cəbrayıllı məcburi köçkünlər ölkənin 58 rayonunun 2 000-dək yaşayış məntəqəsində, çadır düşərgələrində, yük vaqonlarında və yataqxanalarda məskunlaşdılar.

1994-cü il 5 yanvar tarixində Horadiz əməliyyatı zamanı Cəbrayılın Cocuq Mərcanlı kəndi işğaldan azad olunub. 2016-cı il Aprel döyüşləri zamanı Azərbaycan Ordusunun əkshücumu nəticəsində Lələtəpə yüksəkliyi düşməndən təmizlənib və Cocuq Mərcanlı kəndi Azərbaycan Ordusunun nəzarəti altına keçib.

2020-ci ilin oktyabrın 4-də Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev xalqa müraciətində Cəbrayıl şəhəri və rayonun daha 9 kəndinin işğaldan azad olunduğunu elan edib. İkinci Qarabağ müharibəsi zamanı Azərbaycan Ordusu tərəfindən Cəbrayıl rayonunun 1 şəhəri və 80 kəndi işğaldan azad olunub. Cəbrayılın düşmən işğalından təmizlənməsi ilə Azərbaycan-İran sərhədinə dövlət nəzarəti qismən bərpa edilib.

Azərbaycanın Vətən müharibəsində düşmən üzərində qalib gəlməsindən 6 gün sonra - 2020-ci ilin noyabr ayının 16-da Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva işğaldan azad edilən Cəbrayıl rayonunda olublar. Prezident Cəbrayıl şəhərində və Xudafərin körpüsündə şanlı Azərbaycan bayrağını qaldırıb.

Prezident İlham Əliyevin 2020-ci ilin dekabrın 24-də və 2021-ci ilin iyunun 24-də imzaladığı müvafiq sərəncamlara əsasən, bir qrup hərbi qulluqçu "Cəbrayılın azad olunmasına görə" medalı ilə təltif edilib.

Qeyd edək ki, Cəbrayıl rayonu erməni işğalı zamanı vandalizmə məruz qalmış, rayon ərazisində olan evlər, tarixi abidələr tamamilə dağıdılmış, ağaclar məhv edilmişdi.




## Günün mübarək, Cəbrayıl!

# Qarabağın iqtisadi inkişafı gündəmdə

*MÜBARİZ*

Qalib Azərbaycanın Qarabağ bölgəsində yaşayan erməni əsilli sakinlərin cəmiyyətimizə reinteqrasiya edilməsi ilə bağlı planları kifayət qədər genişdir. Ölkəmiz onları öz vətəndaşları hesab edir və hüquqlarının qorunmasına geniş təminatlar verir. Artıq Qarabağ bölgəsində yaşayan erməni sakinlərin reinteqrasiyası ilə bağlı əməli fəaliyyətə start verilib. Bununla əlaqədar, Qarabağın erməni sakinləri ilə təmaslar üzrə müəyyən edilmiş məsul şəxs Ramin Məmmədov 2023-cü il sentyabrın 21-də, 25-də və 29-da Yevlax və Xocalı şəhərlərində erməni sakinlərin nümayəndələri ilə görüşüb. Həmin görüşlərdə müxtəlif istiqamətlərdə, o cümlədən də iqtisadi sahədə inteqrasiya planları erməni sakinlərin nümayəndələrinin diqqətinə çatdırılıb.

**Fiziki və sosial infrastruktur təminatı**

Vətən müharibəsində işğaldan azad edilmiş ərazilərin ölkənin digər regionlarına reinteqrasiyasını təmin etmək məqsədilə Prezident İlham Əliyevin imzaladığı müvafiq sənəd əsasında Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları yaradılıb. Qarabağ və Şərqi Zəngəzur iqtisadi resurslarla zəngin bir diyardır. Yaradılan enerji, yol-nəqliyyat və digər təyinatlı infrastruktur bu potensialdan səmərəli şəkildə istifadə olunmasına geniş imkanlar yaradacaq. Bəhs olunan görüşlərdə diqqətə çatdırılıb ki, erməni sakinlərin yaşadıqları ərazilərin fiziki və sosial infrastruktur təminatı (təhsil, səhiyyə, enerji, qaz, su, yol, rabitə, meliorasiya və s.) müəyyən müddət ərzində ölkə üzrə orta göstəricilər səviyyəsinə çatdırılacaq.

Azərbaycanın Qarabağ bölgəsinin tam reinteqrasiyasına nail olmaq üçün digər məsələlər də həllini tapacaq. O cümlədən görüşlərdə bildirildiyi kimi, Azərbaycan Respublikasının milli valyutasının tam tədavülə keçməsi təmin ediləcək. Eləcə də mülkiyyət məsələləri Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq tənzimlənəcək.

Respublikamızda "2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası" hazırlanaraq qəbul olunub. Dövlət başçısının təsdiqlədiyi Strategiyada vurğulanır ki, işğaldan azad edilmiş ərazilərin ölkə iqtisadiyyatına reinteqrasiyası təmin ediləcək. Bu ərazilərdə iqtisadiyyatın qurulması məqsədilə iqtisadi fəaliyyətin canlanmasının sürətləndirilməsi və əlverişli biznes mühitinin formalaşdırılması təmin ediləcək. Ərazilərə yüksək texnoloji tutumlu investisiyaların cəlbi nəticəsində ixracyönümlü dəyər zənciri qurulacaq və dayanıqlı iş yerləri yaradılacaq. Regionda dairəvi iqtisadiyyata əsaslanan "ağıllı" biznes modelləri yaradılacaq. Faydalı qazıntı və mineral xammal mənbələri nəzərə alınmaqla iqtisadi fəaliyyətdə dəyər zənciri üzrə ixtisaslaşma təşviq ediləcək.

**Geniş əhatəli vergi güzəştləri**

Reinteqrasiya prosesində həmçinin geniş əhatəli vergi güzəştləri də nəzərdə tutulub. Görüşlərdə bununla bağlı aşağıdakı vacib məqamlar erməni sakinlərinin nümayəndələrinin diqqətinə çatdırılıb:

-Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında iqtisadi inkişafın sürətləndirilməsi məqsədilə tətbiq edilən xüsusi iqtisadi rejim ilə bağlı təşviq paketi, o cümlədən vergi və gömrük güzəştləri erməni sakinlərin yaşadıqları ərazilərə də şamil olunur.

-Erməni sakinlərin yaşadıqları ərazilərdə sahibkarlıq fəaliyyəti üçün dəstək tədbirləri həyata keçirilir. Ölkədə sahibkarlıq subyektlərinin maliyyəyə çıxış imkanlarının artırılması ilə bağlı tətbiq olunan güzəştli kreditlər, faizlərin subsidiyalaşdırılması, kreditlərə zəmanətin verilməsi və digər maliyyə alətləri erməni sakinlərin yaşadıqları ərazilərə şamil olunur.

-Fermerlərə subsidiyalar verilir və onlar torpaq vergisi istisna olmaqla, bütün vergilərdən azad edilirlər.



# Cəbrayıl şəhəri azad edildi!

## Cəbrayıl bizimdir!

Bu gün Cəbrayıl şəhəri və Cəbrayıl rayonunun doqquz kəndi işğaldan azad edildi. Bu tarixi hadisə münasibətilə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm.

Cəbrayıl rayonunun və işğal olunmuş digər ərazilərin azad edilməsində fəal iştirak etmiş bütün əsgər və zabitlərimizi ürəkdən təbrik edirəm. Onların qəhrəmanlığı, şücaəti nəticəsində bu gün bizim doğma torpaqlarımız bizə qayıdıb. Bu qanlı döyüşlərdə həlak olmuş bütün şəhidlərimizə Allahdan rəhmət diləyirəm, yaralı hərbçilərimizə Allahdan şəfa diləyirəm.

Uzun illərdən sonra Cəbrayıl şəhəri azad edildi. Cəbrayıl bizimdir!

Dörd il bundan əvvəl Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndi yenidən qurulmağa başlamışdır. Uğurlu əməliyyat nəticəsində azad edilmiş yüksəkliklər imkan verdi ki, Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinə sakinlər qayıtsınlar. Gözəl qəsəbə saldıq. Qəsəbənin açılışında demişdim ki, Cocuq Mərcanlı bizim yenilməz iradəmizin rəmzidir. Cocuq Mərcanlı onu göstərir ki, heç vaxt Azərbaycan xalqı işğalla barışmayacaq və bizim işğal edilmiş digər torpaqlara qayıdışımız məhz Cocuq Mərcanlıdan başlamışdır. Hesab edirəm ki, bu gün Cəbrayıl rayonunun böyük hissəsinin və Cəbrayıl şəhərinin azad edilməsi xüsusi əhəmiyyət daşıyır.

Bilirsiniz, bir həftədir ki, Azərbaycan öz ərazi bütövlüyünün bərpası uğrunda mübarizə aparır. Döyüş meydanında əsgər və zabitlərimiz qəhrəmanlıq göstərir, düşmənə sarsıdıcı zərbələr endirir, düşməni yerinə oturdur, düşməni torpaqlarımızdan qovur, canı-qanı bahasına. Bu şərəfli missiya tarixdə öz yerini tapacaqdır.

Biz bu gün xalqımızın və dövlətimizin yeni tarixini yazırıq, şanlı tarixini yazırıq. Biz bu gün tarixi ədaləti bərpa edirik. Çünki Qarabağ torpağı bizim əzəli tarixi torpağımızdır. Azərbaycan xalqı əsrlər boyu bu torpaqlarda yaşayıb, yaradıb, qurub, tikib. Ancaq uzun illər ərzində - 30 ilə yaxındır ki, erməni cəlladları torpağımızı işğal edib, bizim bütün tarixi, dini, mədəni abidələrimizi darmadağın edib dağıdıblar.

Biz bütün şəhərləri bərpa edəcəyik. Ermənilər tərəfindən dağıdılmış bütün məscidlərimizi bərpa edəcəyik. Bu bölgələrə həyat qayıdacaq. Biz ermənilər tərəfindən bizim tarixi adlarımızı dəyişdirib tarixi saxtalaşdırmaq, eyni zamanda, Azərbaycan xalqının tarixi-mədəni irsini silmək cəhdlərinə son qoyduq. Bizim yaşayış məntəqələrinin tarixi adları bərpa edilir və bərpa ediləcəkdir.

Biz öz torpağımızda döyüşürük, vuruşuruq. Bizim ərazi bütövlüyümüz bərpa edilməlidir və biz haqq yolundayıq. Bizim əsgərimiz xilaskar əsgərdir. Çünki öz doğma dədə-baba torpağını işğalçılardan azad edir.

Bu gün cəbrayıllılar, əlbəttə ki, sevinc içindədirlər, necə ki, bütün Azərbaycan xalqı. Dünən bizim qədim yaşayış yerimiz - Suqovuşan qəsəbəmiz işğaldan azad edildi. Bütün Azərbaycan xalqı bu tarixi hadisəni qeyd edirdi, bir-birini təbrik edirdi, göz yaşlarını saxlaya bilmirdi. Bu, sevinc göz yaşlarıdır. 1990-cı illərin əvvəllərində də Azərbaycan göz yaşlarını töküb. Ancaq o, məğlubiyyət göz yaşları idi, o, faciə göz yaşları idi.

Bu gün Azərbaycan xalqı sevinc içindədir. Cəbrayıllılara və bütün Azərbaycan xalqına bu gün azad edilmiş yaşayış məntəqələrinin adlarını sadalamaq istərdim. Bu gün şanlı Azərbaycan Ordusu aşağıdakı yaşayış məntəqələrini azad edib: Cəbrayıl şəhəri, Karxulu kəndi, Şükürbəyli kəndi, Yuxarı Maralyan kəndi, Çərəkən kəndi, Daşkəsən kəndi, Horovlu kəndi, Decal kəndi, Mahmudlu kəndi, Cəfərabad kəndi.

...Biz haqq-ədalət tərəfindəyik. Biz tarixin ən şərəfli anlarını yaşayırıq. Azərbaycan xalqı qədim xalqdır. Bizim tariximizdə bir çox şərəfli anlar olub, hadisələr olub, qələbələr olub. Onların sırasında bugünkü hadisələr xüsusi yerdədir. Biz ədaləti bərpa edirik, ərazi bütövlüyümüzü bərpa edirik, Azərbaycan xalqının ümidlərini doğrulduruq və bundan sonra da doğruldacağıq. Biz haqlıyıq, biz zəfər çalacağıq! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!

**04.10.2020**

**Prezident İlham Əliyevin xalqa müraciətindən**

# Təhlükəsizliyin təmini...

## Dövlətimizin diqqət mərkəzindədir

Azərbaycanın son üç ildə atdığı addımlar, apardığı siyasi kurs Cənubi Qafqazın sülh və təhlükəsizlik məkanına çevrilməsində əsaslı rol oynayıb. Xüsusilə, sentyabrın 19-20-də baş tutan 24 saatlıq antiterror tədbirləri, terrorçu xuntanın zərərsizləşdirilməsi, bölgə üçün mühüm təhdidə çevrilmiş silahların təhvil alınması olduqca mühüm əhəmiyyətə malikdir. Azərbaycan bu yolla bütövlükdə, bölgənin sabitliyinə töhfə verməklə yanaşı, Qarabağda yaşayan erməni sakinləri qeyri-qanuni xuntanın əlindən xilas etdi. İllərlə əsir, girov həyatı yaşayan erməni sakinlər Azərbaycanın uğurlu addımları ilə öz azadlıqlarına qovuşdular. Bu gün reinteqrasiya prosesinin aktiv tətbiqi fonunda təhlükəsizlik məsələsi də mühüm predmetlərdən sayılır.

**Daxili işlər orqanları ərazidə təhlükəsizliyi təmin edir**

24 saatlıq antiterror tədbirləri zamanı silahlıların təslim olması, silahların təhvil verilməsi, xuntanın ağ bayraq qaldırması təhlükəsizlik tədbirləri baxımından da yeni mərhələ formalaşdırıb. Prezident Administrasiyasının yaydığı məlumatda bildirilir ki, tərk-silah və tərxis prosesi başa çatdırılır, bütün silahlar sakinlərdən yığılır. Azərbaycan Respublikasının daxili işlər orqanları ərazidə ictimai asayişin qorunmasını və sakinlərin təhlükəsizliyini təmin edir. Sakinlər daxili işlər orqanlarına işə cəlb oluna bilər.

Bəli, artıq erməni sakinlər rahat və təhlükəsiz həyata qədəm qoyurlar. Azərbaycanın asayiş keşiçkiləri, hüquq-mühafizə orqanları bu təhlükəsizliyin əsas təminatçısına çevriliblər. Azərbaycan polisi Qarabağda qanunun aliliyinin təmin olunmasına nəzarət edir, erməni sakinlərin sərbəst fəaliyyətinə şərait yaradır. Hətta açıqlamadan da göründüyü kimi, sakinlər daxili işlər orqanlarına cəlb oluna bilərlər. Bu, bir daha ölkəmizin tolerant və qanunların aliliyinin təmin edildiyi dövlət olduğunu sübuta yetirir.

**Erməni sakinləri əsarətdən xilas oldular...**

Halbuki, indiyə qədər xuntanın Qarabağın erməni sakinlərinə göstərdiyi münasibət yalnız əsarət kimi dəyərləndirilə bilər. Yayılan informasiyalarda insanların ərzaqla təminatında yaradılan süni əngəllər ortaya çıxır - xunta başçıları ərzaqları insanlardan gizləyirmişlər, anbarlarda saxlayırmışlar, onları aclıqla, yoxsulluqla özlərindən asılı vəziyyətə salırmışlar. Ortaya çıxan faktlar göstərir ki, Qarabağın erməni sakinlərinin həm təhlükəsizlikləri, həm həyatları, həm ərzaq təminatları təhdid altında imiş.

Artıq bu çətinliklər geridə qalıb. Bu gün Azərbaycan öz tarixi torpaqlarında suverenliyini bərpa edib. Bu regionun təhlükəsiz inkişafı, insanların təhlükəsiz bir mühitdə yaşaması bizim üçün əsas məsələlərdəndir. Qeyd edilən amil Azərbaycan dövləti tərəfindən qarantiya altındadır...

*S.İSMAYILZADƏ*

# Multikulturalizm həyat tərzimizdir...

## Erməni sakinlər reinteqrasiya prosesində bunun canlı şahidi olacaqlar

24 saatlıq antiterror tədbirlərinin nəticəsi olaraq ortaya çıxan ən mühüm reallıqlardan biri Qarabağın erməni sakinləri ilə təmasların inkişaf etdirilməsidir. Qeyd edək ki, bununla bağlı müvafiq addımlar atılmaqdadır. Azərbaycan Respublikasının Qarabağ bölgəsində yaşayan erməni sakinlər ilə təmaslar üzrə məsul şəxs qisminə Ramin Məmmədovun reallaşdırdığı təmaslar zamanı erməni sakinlərin xaşihləri nəzər alınır, humanitar yardımların istiqamətləri müəyyənləşdirilir, eyni zamanda reinteqrasiyanın əsas mahiyyəti - proqramı müzakirə olunur. Xüsusilə, vurğulanmalıdır ki, Qarabağda yaşayan ermənilərin Azərbaycan cəmiyyətinə reinteqrasiyası hər zaman aktuallığını qoruyub -Vətən müharibəsindən sonrakı dövrdə zaman-zaman Azərbaycan dövləti bu istiqamətdə addımları və fikirləri ilə yadda qalıb. Prezident İlham Əliyev bu ilin əvvəlində Münhen Təhlükəsizlik Konfransında çıxışı zamanı da bildirmişdi ki, Qarabağ ermənileri Azərbaycan vətəndaşlarıdır, azlıqdır: "Azərbaycan çoxmillətli ölkədir və Azərbaycanda bütün azlıqlar mədəniyyət, dil, həmçinin təhlükəsizlik də daxil olmaqla, eyni hüquq və üstünlüklərdən faydalanırlar. Biz Qarabağdakı erməni icmasının nümayəndələri ilə praktiki təmaslara başlamağa hazırıq".

**Dini etiqad azadlığı, mədəni və dini abidələrin mühafizəsi təmin olunur**

Reinteqrasiya proqramı çərçivəsində atılacaq addımlar arasında etnik, dini, dil mənsubiyyəti kimi məsələlər də yer almaqdadır. Prezident Adminstrasiyasının bununla bağlı açıqlamasında da bildirilir ki, sakinlərin öz mədəniyyətini, etnik-mədəni xüsusiyyətlərini qorumaq və inkişaf etdirmək hüququ təmin edilir. Dini etiqad azadlığı, mədəni və dini abidələrin mühafizəsi təmin olunur. Erməni dilinin istifadəsinə imkan yaradılır.

Azərbaycan dövləti hər zaman özünün tolerant siyasəti ilə seçilib. Hətta II Qarabağ müharibəsindən sonra torpaqlarımızın işğaldan azad edilməsi zamanı bəlli oldu ki, Azərbaycanın bir çox dini-tarixi abidəsi ermənilər tərəfindən dağıdılıb. Bunun qarşılığında Azərbaycan ərazilərimizdəki qeyri-islam abidələrini nəinki dağıtmadı, hətta onların rekonstruksiyası işlərinə start verdi. Məsələn, Şuşada yerləşən Qazançı kilsəsi bərpa olundu. Bu, ölkəmizin xoş niyyətini, qisasçılıq arzusunda olmadığını göstərir.

**Multikulturalizm və tolerantlıq mərkəzi**

Reinteqrasiyanın bəhs olunan istiqamətləri olduqca mühüm əhəmiyyət kəsb edir. Proses ərzində erməni sakinlər Azərbaycanın əldə etdiyi uğurlu inkişafın, əsaslı yeniliklərin və bu nailiyyətlərdə tolerantlığın, multikultural həyat tərzinin böyük rolunu görmüş olacaqlar. Eyni zamanda, qarşılıqlı etimadın möhkəmlənməsi üçün əsas şərt sayılan tolerantlığın, multikulturalizmin Azərbaycanda həyat tərzi olduğu bir daha bəlli olacaq - prosesin uğurla davam etməsi ölkəmizin gələcək inkişafı üçün də yeni mərhələ yaradacaq. Qarabağda yaşayan erməni sakinlər tolerant, multikultural həyat tərzinə malik olan Azərbaycanda bütün xalqların sivil münasibətlər çərçivəsində yaşadığını növbəti dəfə görmək imkanı qazanacaqlar, bunun şahidinə çevriləcəklər. Başqa sözlə, bu amil növbəti dəfə öz təsdiqini tapacaq - Azərbaycan tarixən müxtəlif millətlərin dinc, yanaşı yaşadığı, milli və dini tolerantlığın bərqərar olduğu bir ölkədir və ölkəmizdə yaşayan bütün xalqların nümayəndələrinə bərabər münasibət göstərilib və göstərilməkdədir. Ölkəmizdə millətlərarası münasibətlərin inkişafı istiqamətində ulu öndər Heydər Əliyevin əsasını qoyduğu siyasi kurs Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Məhz dövlət başçımızın apardığı uğurlu fəaliyyət Azərbaycanın multikulturalizm və tolerantlıq mərkəzi kimi dünyada şöhrət qazanmasına şərait yaradıb - Azərbaycan dünyada sivilizasiyaların dialoq mərkəzi kimi tanınıb.

*SADİQ*



# Bir sözü ilə xalq ayağa qalxdı!

## Sevginin, inamın, etimadın qələbəsi

### 1994-cü il oktyabrın 4-də Heydər Əliyevin xalqa müraciəti müstəqil dövlətçiliyimizin dönüş nöqtəsidir

Bu gün uğurları ilə göz oxşayan, beynəlxalq siyasi meydanlarda öz sözü, öz dəstxətti olan Azərbycanımızın inkişaf tarixi enişli-yoxuşlu olub. Xüsusilə, ötən əsrin son onilliyində taleyüklü proseslərin ard-arda düzülməsi hələ təzə-təzə formalaşan kövrək dövlətçiliyi təhdid qarşısında qoyurdu. Sadəcə, Azərbaycanın bəxti bir məsələdə gətirmişdi - ölkənin rəhbərliyində siyasət dahisi, qanı və canı bahasına da olsa dövlətini qorumağı özünün borcu sayan Heydər Əliyev vardı...

1992-93-cü illərdə baş verən xaos və anarxiya, başıpozuqluq, naşı idarəçilik ölkədə qanunsuzluq mühiti formalaşdırmışdı - hər kəs başına topladığı qeyri-qanuni silahlı dəstələrlə "nə istəsə edə bilər" psixologiyasına qapılmışdı. Yenicə müstəqillik əldə etmiş Azərbaycanı parçalamaq, hakimiyyəti qəsb etmək uğrunda azğın bir savaş gedirdi. Belə çətin bir anda Azərbaycan xalqı öz iradəsini ortaya qoydu, Azərbaycan ziyalıları ölkəni məhv olmaqdan xilas etmək üçün Heydər Əliyevə üz tutdu. 1993-cü ilin iyulunda Bakıya gələn Heydər Əliyev qısa zamanda ölkənin suverenliyinin təmini, bütövlüyünün qorunması uğrunda mühüm işlər gördü, addımlar atdı. Prezidentliyinin ilk ilində ölkədə hüquqi dövlət quruculuğuna start verən Heydər Əliyev dövlətin iqtisadi inkişafının təməlini formalaşdırdı - 1994-cü ilin sentyabrında "Əsrin müqaviləsi"ni imzalamaqla Azərbaycanın gələcək inkişafının əsasını qoydu. Qısa zamanda Azərbaycanın toparlanaraq özünə gəlməsi, ayağa qalxması, hüquqi dövlət quruculuğu yoluna qədəm qoyması, qanunların işləmə mexanizminin təkmilləşdirilməsi yönündə addımların atılması, mərkəzləşdirilmiş dövlət anlayışının ortaya qoyulması, beynəlxalq aləmlə təmasların qurulması, müstəqil Azərbaycanın tanıdılması vaxtilə başıpozuqluğu özü üçün həyat fəlsəfəsinə çevirənlərin işinə yaramırdı. Bəzi ölkələrin Azərbaycanın toparlanmasına qarşı qısqanclıq nümayiş etdirməsi də bu məsələdə özünü göstərirdi.

Həmin xarici dairələrlə işbirliyində olan xəyanətkar qruplar bir sıra təxribat və terror xarakterli addımlar atdılar. Belə ki, 1994-cü ilin sentyabrın 21-dən 22-nə keçən gecə dövləti cinayətlərdə təqsirləndirilən 4 nəfər şəxs Milli Təhlükəsizlik Nazirliyinin təcridxanasından qaçırıldı, Milli Məclisin sədr müavini Afiyəddin Cəlilov və Prezident yanında Xüsusi İdarənin rəisi Şəmsi Rəhimov terrorla qətlə yetirildi. Bu hadisələr öz pik nöqtəsinə oktyabrın 2-də Mahir Cavadovun rəhbərliyi ilə əsasən "OMON"-çulardan ibarət silahlı dəstənin Respublika Prokurorluğunun binasını güllələbaran edərək ələ keçirməsi ilə çatdı. Həmin zamanlarda Nyu-Yorkda BMT Baş Məclisinin illik sessiyasında iştirak edən Prezident Heydər Əliyev təcili ölkəyə qayıdaraq təhlükəli proseslərin qarşısını almaq üçün təxirəsalınmaz tədbirlərə əl atdı.

Oktyabrın 4-də Cavadov qardaşları ilə əlbir olan o zamankı üsyankar baş nazir Sürət Hüseynovun qanunsuz silahlı dəstələri Gəncə şəhərində hakimiyyət orqanlarının inzibati binalarını, dəmir yolu vağzalını və aeroportu zorla ələ keçirdi. Demək olar ki, Gəncə və ona yaxın regionlara qarşı silahlı basqınlar həyata keçirən, "OMON"un yerli dəstələri vasitəsilə qanuni dövlət strukturlarına qarşı silahlı təzyiq göstərən qiyamçılar ölkədə yeni vətəndaş qarşıdurması yaratmağa niyyətlənmişdi. Belə bir şəraitdə ulu öndər Heydər Əliyev fenomenal siyasi dühası ilə bu problemin həlli istiqamətində mühüm bir addım atdı. Belə ki, oktyabrın 4-də televiziya ilə birbaşa xalqa müraciət edərək, vətəndaşları Azərbaycan dövlətçiliyini və milli suverenliyini qorumaq naminə Prezident sarayının qarşısına çağıran ulu öndər Heydər Əliyev bir daha Azərbaycan xalqına güvəndiyini, inandığını ortaya qoydu. Gecə saatları olmasına baxmayaraq, qısa müddətdə on minlərlə insan Ulu Öndərin çağırışı ilə Prezident sarayının qarşısına yığıldı və xalq-hakimiyyət birliyinin gücünü, qüdrətini qiyamçılara və onları dəstəkləyən xarici dairələrə nümayiş etdirdi. Qısa zamanda silahlı qiyamçılar zərərsizləşdirildi və günahkarlar öz layiqli cəzasını aldılar.



Ertəsi gün-oktyabrın 5-də daha böyük izdiham - təxminən bir milyon insan "Azadlıq" meydanına toplaşaraq respublikanın müstəqilliyinin, dövlətçiliyimizin qorunmasında Prezident Heydər Əliyevin yanında olduqlarını nümayiş etdirdi. Meydana toplaşanlar qarşısında çıxış edən Ulu Öndər baş verənləri müstəqilliyimizə qarşı qəsd kimi dəyərləndirərək dedi: "Son günlərdə baş vermiş hadisələr Azərbaycanın müstəqilliyini puça çıxarmağa, onu müstəqillik yolundan döndərməyə, bu yolla irəliləyişinin qarşısını almağa, ölkəmizin daxili ictimai-siyasi sabitliyini pozmağa yönəldilmiş əməllərdir. Onu da bilin ki, bu hadisələr, ümumiyyətlə, Azərbaycanı dağıtmaq, parçalamaq, ölkəmizi bir dövlət kimi məhv etmək üçün qurulan planların bir hissəsidir. Qoy, hamı bilsin və əmin olsun ki, bu bəd niyyətlərin və bu çirkin planların heç birisi həyata keçməyəcəkdir! Azərbaycan xalqı buna yol verməyəcəkdir! Azərbaycan müstəqil bir dövlət kimi yaşayacaqdır".

Beləliklə, müdrik siyasətçi Heydər Əliyev dövlət çevrilişinin qarşısını məhz doğma xalqına güvənməklə aldı. Silahlar işə salınmadı, bir güllə belə atılmadı. Bu qiyamın qarşısının alınması Azərbaycanın yeni inkişaf yoluna qədəm qoymasına, hüquqi dövlət quruculuğu prosesinin daha da sürətlə aparılmasına şərait yaratdı. Böyük siyasət adamının xalqına güvəni müasir Azərbaycanın öz yoluna davam etməsinə, bugünki qələbələrə, zəfərlərə və nailiyyətlərə imza atmasını şərtləndirdi. Xalqının əbədi sevgisini sağ ikən qazanan böyük liderin fenomenal addımı Azərbaycanın inkişaf yoluna işıq saldı...

***P.İSMAYILOV***

## YAP Goranboy rayon təşkilatının yeni təyin olunmuş sədri ictimaiyyətə təqdim edilib

Oktyabrın 3-də Yeni Azərbaycan Partiyasının (YAP) Goranboy rayon təşkilatının yeni təyin olunmuş sədri Samir Qocayev ictimaiyyətə təqdim edilib.



Goranboyda keçirilən təqdimat mərasimindən əvvəl tədbir iştirakçıları ümummilli lider Heydər Əliyevin rayon mərkəzində yerləşən abidəsini ziyarət edib, abidənin önünə tər güllər düzərək əziz xatirəsini dərin ehtiramla yad ediblər.

Tədbirdə çıxış edən Goranboy rayon İcra Hakimiyyətinin başçısı Məhərrəm Quliyev bildirib ki, Azərbaycan xalqının böyük inam və etimadını qazanaraq ümumxalq və qələbələr partiyasına çevrilən Yeni Azərbaycan Partiyası Heydər Əliyev ideyaları əsasında və Prezident İlham Əliyevin rəhbərliyi ilə şərəfli inkişaf yolu keçib, tarixi uğurlara imza atıb.




YAP Mərkəzi Aparatının Təşkilat şöbəsinin baş məsləhətçisi Ramil Mirzəyev partiyanın VII qurultayından ötən dövr ərzində həyata keçirilən işlərin əhəmiyyətindən bəhs edib.

Sonra partiyanın Goranboy rayon təşkilatının sədri Samir Qocayev ictimaiyyətə təqdim edilib və onun fəaliyyəti haqqında ətraflı məlumat verilib.

YAP Goranboy rayon təşkilatının sədri Samir Qocayev çıxış edərək təşəkkürünü bildirib, göstərilən etimadı layiqincə doğrultmağa çalışacağını vurğulayıb.

Partiya fəalları və ictimaiyyət nümayəndələrinin çıxışlarında isə vurğulanıb ki, müstəqillik dövrünün ən möhtəşəm hadisələri və tarixi nailiyyətləri müasir müstəqil Azərbaycanın qurucusu, xalqımızın ümummilli lideri Heydər Əliyevin və Onun layiqli davamçısı olan Prezident İlham Əliyevin adı ilə bağlıdır. Qeyd edilib ki, tarixi uğurlarımızda Yeni Azərbaycan Partiyasının xüsusi imzası var.

## Gənc partiya fəalları Heydər Əliyev Mərkəzini ziyarət ediblər

2023-cü il oktyabr ayının 3-də YAP Hacıqabul rayon təşkilatı tərəfindən gənc partiya fəallarının iştirakı ilə Hacıqabul rayon Heydər Əliyev Mərkəzinə ekskursiya təşkil olunub.



"Heydər Əliyev İli" ilə əlaqədar Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatı tərəfindən hazırlanan və İdarə Heyətinin qərarı ilə təsdiqlənən Tədbirlər Planı çərçivəsində Ulu Öndərin zəngin dövlətçilik irsinin, əbədiyaşar ideyalarının öyrənilməsi və yeni nəslə aşılanması, xalqımız və dövlətimiz qarşısında misilsiz xidmətlərinin geniş ictimaiyyətə çatdırılması məqsədilə ardıcıl tədbirlər həyata keçirilir.

Əvvəlcə Ulu Öndərin abidəsi ziyarət olunub, abidənin önünə gül dəstələri düzülüb.

Mərkəzdə gənclərə müstəqil Azərbaycan dövlətinin memarı, ümummilli lider Heydər Əliyevin zəngin həyat yolu və müstəsna fəaliyyəti haqqında geniş məlumat verilib. Gənclər eksponat, fotoşəkil və kitablarla tanış olublar.

Sonda xatirə fotosu çəkdirilib.

## "Azersky-2" peyki Azərbaycanda hazırlanacaq

Bakının ev sahibliyi ilə baş tutan 74-cü Beynəlxalq Astronavtika Konqresi çərçivəsində Rəqəmsal İnkşaf və Nəqliyyat Nazirliyi yanında Azərbaycan Kosmik Agentlik ("Azərkosmos") və "Israel Aerospace Industries" (IAI) şirkəti arasında Azərbaycanın yeni müşahidə peyklərinin hazırlanması üzrə əməkdaşlıq müqaviləsi imzalanıb.




Bu barədə AZƏRTAC-a Rəqəmsal İnkşaf və Nəqliyyat Nazirliyindən bildirilib.

Qeyd edilib ki, "Azersky-2" proqramı ölkədə Yer səthinin müşahidəsi sektorunda davamlılığı təmin etməklə yanaşı, biznes baxımından yeni səhifə açacaq, o cümlədən ölkədə kosmik ekosistemin daha da inkişafına xidmət edəcək. Müqaviləyə əsasən, "Azersky-2" proqramı çərçivəsində iki peyk hazırlanacaq. Bunlar, yüksək ayırdetməli elektro-optik sensora malik Yerin məsafədən müşahidə peykləri olacaq. "IAI" peyk qruplaşmasının ilk peykinin layihələndirilməsi, yığılması, inteqrasiyası və sınağını azərbaycanlı mütəxəssislərin iştirakı ilə aparacaq.

İsrailli mütəxəssislər, həmçinin Azərbaycanda qurulacaq Peyklərin İnkişafı Mərkəzinin layihələndirilməsində də "Azərkosmos"a dəstək göstərəcək. "Azərbaycanlı mütəxəssislərin əldə etdiyi təcrübə isə ikinci peykin Azərbaycanda hazırlanmasına imkan verəcək", - deyə məlumatda qeyd olunub.

"Azərkosmos"un İdarə heyətinin sədri Samməddin Əsədov qeyd edib: "Bu layihə həm "Azərkosmos", həm də "İsrael Aerospace Industries" şirkəti üçün unikal xarakter daşıyır, şübhəsiz ki, ölkələrimiz arasında kosmik sahədə əməkdaşlığın inkişafına töhfə verəcək. Əməkdaşlığımızı ölkədə insan kapitalının, kosmik texnologiyaların inkişafında mühüm addım hesab edirəm".

"Israel Aerospace Industries" olaraq biz bu əməkdaşlığa əhəmiyyətli töhfələr verməyimizlə fəxr edirik və ölkələrimizin qarşılıqlı mənafeyi naminə tərəfdaşlığımızın daha da möhkəmlənməsinə çalışacağıq", - deyə İsrail şirkətinin prezidenti və baş icraçı direktoru Boaz Levi bildirib.

"IAI" proqram çərçivəsində Azərbaycanda "Azersky-2" sisteminin idarə edilməsi və istismarı üzrə bütün lazımi yerüstü sistemləri təmin edəcək. Peykə nəzarət və peyk təsvirlərinin emal olunmasına dair yerli mütəxəssislərə təlim keçiriləcək. Peyklər 2026 və 2028-ci illərdə orbitə buraxılacaq. Peyki orbitə qaldıracaq daşıyıcı raket isə növbəti aylarda məlum olacaq.



**74-cü Beynəlxalq Astronavtika Konqresinə həsr olunmuş poçt markalarının möhürlənmə mərasimi keçirilib**

Bakıda keçirilən 74-cü Beynəlxalq Astronavtika Konqresinə həsr olunmuş poçt markalarının möhürlənmə mərasimi olub.

Mərasim Heydər Əliyev Mərkəzində keçirilib.

Azərbaycan Kosmik Agentliyinin ("Azərkosmos") İdarə Heyətinin sədri Samməddin Əsədov və Beynəlxalq Astronavtika Federasiyasının (IAF) prezidenti Kley Mouri (Clay Mowry) markaları imzalayıblar.

"Azərpoçt" MMC tərəfindən hazırlanan marka Belarusun Bobruysk şəhərinin "Bobruisk Integrated Printing House" çap evində iki növ blok olmaqla, hər biri 5 000 ədəd tirajla çap edilib. Buraxılış üzrə hər bir blok 4 marka, ümumilikdə isə 8 markadan ibarət kiçik vərəqlər şəklindədir.

Möhürlənmə mərasimindən sonra "Azərkosmos"un İdarə Heyətinin sədri Samməddin Əsədov və Beynəlxalq Astronavtika Federasiyasının (IAF) prezidenti Kley Mouri, IAF-ın icraçı direktoru Kristian Faytinger Azərbaycanın poçt markaları nümunələri ilə tanış olublar.

Sonda IAF-ın prezidenti Kley Mouri və təşkilatın icraçı direktoru Kristian Faytinger marka olan zərfə imza atıblar.



# Türkün gücünü hər kəs gördü!

## Texnoloji mühitə sürətli inteqrasiyanın nəticəsi

*Günel ABBAS*

Oktyabrın 2-də Bakı Konqres Mərkəzində 74-cü Beynəlxalq Astronavtika Konqresinin açılış mərasimi keçirilib. Tədbirdə 100-dən artıq ölkəni təmsil edən 5000-dən çox nümayəndə iştirak edib.

İştirakçılar arasında TEKNOFEST-in İdarə Heyətinin sədri, "Baykar" şirkətinin texniki direktoru Selcuk Bayraktar da yer alıb. S.Bayraktar 74-cü Beynəlxalq Astronavtika Konqresi çərçivəsində "Akıncı" pilotsuz uçuş aparatının kiçikölçülü maketini dövlətimizin başçısına hədiyyə edib. Qeyd edək ki, 2022-ci il mayın 28-də Bakıda ilk dəfə keçirilən "TEKNOFEST Azərbaycan" Aerokosmik və Texnologiya Festivalında Azərbaycan Prezidenti İlham Əliyev Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla birgə "Akıncı" pilotsuz uçuş aparatının üzərinə imza atmışdılar.

Selçuk Bayraktar tədbirdən sonra jurnalistlərə açıqlamasında bir neçə əhəmiyyətli məqamlara toxunub. Bildirib ki, Beynəlxalq Astronavtika Konqresinin 50 il sonra müstəqil Azərbaycanda, Vətən olaraq gördüyü ölkədə keçirilməsi böyük xoşbəxtlikdir: "Türkiyənin Kosmik Agentliyi buradadır, nazirliklərimizin stendləri var, "Roketsan" və "Aselsan" burada təmsil olunur. Həmçinin bizim kosmik tədqiqatlarla məşğul olan təşkilatımız buradadır. Onsuz da biz bir millətik, iki dövlətik. Ölkələrimiz arasındakı əlaqələri kosmik məkanda da inkişaf etdirməliyik. Bu kosmos sahəsində ən prestijli konqresdir. Biz də inşallah 2 il sonra üçün Türkiyədə ev sahibliyi etmək istəyirik", - deyə o qeyd edib.

Xatırladaq ki, Türkiyə Beynəlxalq Astronavtika Konqresində 500-ə yaxın "Teknofest" iştirakçısı və qalibi ilə iştirak edib.

**Azərbaycanlı gənclər süni intellekt üzərində işləyirlər**

Onun sözlərinə görə, pilotsuz uçuş aparatları ilə bağlı texnologiyaları inkişaf etdirmək üçün Azərbaycanda "Bayraktar Technology Azərbaycan" şirkəti yaradılıb: "Orada Azərbaycan gəncləri süni intellekt üzərində işləyirlər. Bu pilotsuz təyyarələrin avtomatik uçmasını təmin edən proqram təminatıdır və ən mühüm texnologiyadır. Biz bunu qabaqcıl avtomatlaşdırma adlandırırıq. Azərbaycanlı qardaşlarımız İstanbuldadırlar, tezliklə bura gələcəklər".

S. Bayraktar qeyd edib ki, Türkiyənin Kosmik Agentliyi Azərbaycanın Kosmik Agentliyi ilə sıx əməkdaşlıq edir: "Yüksək texnologiyada da Azərbaycan güclənəcək. Biz gənclərimizin belə fəaliyyətlərdə gələcəyə iz qoyacaq layihələrdə birgə çalışmalarına önəm veririk".

**"Akınçı" pilotsuz uçuş aparatları Azərbaycana təhvil veriləcək**

S.Bayraktar bildirib ki, azərbaycanlı pilotlar təlimləri uğurla başa vurublar: "Odur ki, biz ən yaxın gələcəkdə "Akınçı" PUA-larını Azərbaycana təhvil verəcəyik. Həmçinin 20 azərbaycanlı mühəndis "Baykar texnoloji Azərbaycan" şirkətində fəaliyyətə başlayıb".

O bildirib ki, pilotsuz uçuş aparatları (PUA) istehsalı və tədrisi məqsədi ilə "Baykar texnoloji Azərbaycan" qurulmuşdu: "Mühəndis komandamız azərbaycanlı gənc qardaşlarımızla birlikdə işləməyə başlamışdı. Onlar daha çox süni intellekt və faydası daha yüksək olacaq sahələr üzərində işləməyə başlayıb. Hazırda 20 azərbaycanlı mühəndis sözügedən sahədə fəaliyyətini davan etdirir".

"Bunlarla yanaşı, digər sahələrdə də çalışacaq komandalarımız yetişib. Sözügedən rəqəmlər sizə kiçik gələ bilər, lakin dünyanın ən böyük işlərini kiçik, amma doğru təməllər üzərində qurulmuş komandalar həyata keçirib. Hansı ki, "Baykar" da əvvəllər kiçik bir komanda ilə fəaliyyətə başlamışdı", - S.Bayraktar vurğulayıb.

Türkiyə dünyada ən yaxşı pilotsuz uçuş aparatlarına sahibdir

S.Bayraktar bildirib ki, bu gün Türkiyə dünyada ən yaxşı pilotsuz uçuş aparatlarına sahibdir: "Qarabağın azad olunmasında PUA-dan istifadə edildi. Bu, bizim üçün qürur mənbəyidir. PUA-ları idarə edən azərbaycanlı pilotlar türkün gücünü bütün dünyaya göstərdi. Türklər ilk dəfə olaraq PUA-larla müharibədə qalib gəldi. Türkün gücünü hər kəs gördü. Bu, əlbəttə, həm də şəhid və qazilərimiz sayəsində mümkün oldu".

Daha sonra Selçuk Bayraktar "Bilim Bakı" mərkəzini ziyarəti çərçivəsində keçirilən tədbirdə çıxışı zamanı qeyd edib ki, hazırda yüksək texnologiya bizim həyatı şəkilləndirir: "Yaxın keçmişdə pandemiya yaşadıq və həmin dövrdə ən inkişaf ölkələrdə belə kifayət qədər süni nəfəs aparatlarının olmadığını gördük. Bu zaman həmin aparatların satışı qadağan edildi. Kiçik şeylər belə insanları qütbləşdirərkən belə həyati hadisələrin insanları bir-birindən daha da uzaqlaşdırması mümkün deyildi. Bu baxımdan bilim mərkəzlərimizin hədəfi vətənimizin, insanlığın faydasına işlər görən gənclərin yetişdirilməsinə nail olmaqdır".

# Mahiyyətcə yanlış və zərərlidir...

## QAİ: ABŞ Konqresinin bir qrup üzvünün Prezident Baydenə qərəzli məktubunu sərt şəkildə qınayırıq

Biz, Ermənistandan qovulmuş azərbaycanlıları özündə birləşdirən Qərbi Azərbaycan İcması (QAİ) Amerika Birləşmiş Ştatları (ABŞ) Konqresinin bir qrup üzvünün Prezident Cozef Baydenə 2023-cü il oktyabrın 2-də göndərdiyi qərəzli məktubu sərt şəkildə qınayırıq.

Bu fikirlər Qərbi Azərbaycan İcmasının açıqlamasında yer alıb.

Açıqlamada, həmçinin bildirilib: "Məktub mahiyyətcə yanlışdır, zərərlidir və etnik azərbaycanlılara qarşı qərəz və ayrı-seçkiliyi bariz şəkildə göstərir. Belə görünür ki, Qarabağın erməni sakinlərinin tamhüquqlu vətəndaş kimi Azərbaycana reinteqrasiyasına qarşı çıxan və regionda monoetnikliyi dəstəkləyən təkcə Ermənistan hökuməti deyil, həm də Konqresin məlum üzvləri imiş.

ABŞ-ın Azərbaycana dövlət yardımını qadağan edən monfur 907-ci maddənin tətbiqinin bərpa edilməsi və əlavə sanksiyalar barədə konqresmenlərin çağırışı ədalətsiz və qeyri-dost addımdır. Ərazisinin 20 faizi Ermənistan tərəfindən işğala məruz qalmış, bir milyon qaçqın və məcburi köçkün problemi ilə üzləşmiş, 30 mindən artıq sakini öldürülmüş, minə yaxın şəhər və kəndi dağıdılmış Azərbaycana qarşı bu mənfi addımlara çağırmaqla, konqresmenlər faktiki olaraq, Ermənistanın sözügedən cinayətlərinə şərik olurlar.

Müharibə cinayətləri və insanlıq əleyhinə cinayətlərdə, o cümlədən Xocalı soyqırımı, Qaradağlı, Meşəli, Malıbəyli qətliamlarında və Azərbaycanın şəhərlərini raket atəşinə tutmaqda iştiraklarına dair ciddi əsaslar olan separatçıları müdafiə etmək ABŞ konqresmenlərinə şərəf gətirmir.

Nəhayət, vurğulamaq istərdik ki, ABŞ konqresmenləri bir dəfə də olsun Ermənistandan 300 minə yaxın azərbaycanlının qovulması faktına münasibət bildirməyiblər. Bu məsələyə dair ABŞ Konqresinin Tom Lantos adına insan hüquqları komissiyasına göndərdiyimiz müraciət cavabsız qalıb.

Biz konqresmenləri etnik və dini əsaslı ayrı-seçkilik və qərəzli yanaşmalarına son verməyə, Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə hörmət etməyə, onun etnik müxtəliflik və birgəyaşayışa əsaslanan reinteqrasiya tədbirlərinə dəstək verməyə, Ermənistanın törətdiyi müharibə cinayətləri və insanlıq əleyhinə cinayətlərə münasibət bildirməyə və Ermənistandan qovulmuş azərbaycanlıların təhlükəsiz şəkildə öz evlərinə qayıtmasına dəstək verməyə çağırırıq".

# Reinteqrasiya prosesləri çərçivəsində...

## Erməni sakinlər də sosial dəstək tədbirlərindən bəhrələnəcəklər

*M.ABDULLAYEV*

Azərbaycanın sentyabrın 19-da başladığı və cəmi bir gün ərzində uğurla tamamladığı lokal xarakterli antiterror tədbirlərinin nəticəsi olaraq əldə olunan razılaşma Azərbaycan və Ermənistan arasında sülh prosesinin irəliləməsi, eləcə də Qarabağ bölgəsində yaşayan ermənilərin reinteqrasiyasına başlanılması üçün əlverişli zəmin formalaşdırıb. İndiyədək erməni sakinlər separatçı rejimin girovluğunda qalmışdılar. Artıq bu rejim özünü buraxıb. Hazırda Qarabağ bölgəsində erməni hərbi birləşmələrinin tərksilah edilməsi prosesi uğurla davam edilir. Paralel şəkildə reinteqrasiya məsələlərinin həllinə başlanılıb. Xəbər verildiyi kimi, Azərbaycan Respublikası Qarabağ bölgəsində yaşayan erməni sakinlərin reinteqrasiyası ilə bağlı əməli fəaliyyətə başlayıb. Bununla əlaqədar, Qarabağın erməni sakinləri ilə təmaslar üzrə müəyyən edilmiş məsul şəxs Ramin Məmmədov 2023-cü il sentyabrın 21-də, 25-də və 29-da Yevlax və Xocalı şəhərlərində erməni sakinlərin nümayəndələri ilə görüşüb. Bəhs olunan görüşlərdə Azərbaycanın hazırladığı reinteqrasiya proqramı erməni sakinlərinin nümayəndələrinin diqqətinə çatdırılıb. Həmin proqramın mühüm istiqamətlərindən biri sosial sahə ilə bağlıdır. Görüşlərdə erməni sakinlərin nümayəndələrinin diqqətinə çatdırılıb ki:



-Sakinlər ölkə üzrə əməyin ödənişi və sosial ödənişlər sistemi ilə əhatə olunurlar,

-Sakinlərə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında sosial sahədə tətbiq olunan güzəştlər, sosial xidmətlər və məşğulluq proqramları şamil edilir,

-Sakinlər səyyar xidmətlərdən (Səyyar ASAN və Səyyar DOST) faydalanırlar.

Qeyd edək ki, Azərbaycan dövləti tərəfindən işğaldan azad edilmiş ərazilərə qayıdan və burada yaşayan sakinlərin sosial ehtiyaclarının qarşılanması məqsədilə bir sıra təşviq mexanizmləri işə salınıb. Məsələn, işğaldan azad olunan ərazilərimizdə çalışan vətəndaşlarımız 600 manatlıq birdəfəlik müavinətin alınması üçün müraciət edə bilərlər. Müavinət proaktiv qaydada təyin edilir. Bundan ötrü şəxsiyyət vəsiqəsi ilə müraciət ünvanlamaq kifayətdir.

Qeyd edək ki, bu dəstək mexanizmi Qarabağ və Şərqi Zəngəzurda tətbiq olunan sosial məzmunlu tədbirlərdən biridir. "Əmək Məcəlləsinə" edilən dəyişikliklər ilə işğaldan azad olunan ərazilərimizdə məskunlaşaraq işləyənlər və işəgötürənlər üçün stimullaşdırıcı mexanizmlərin və eləcə də güzəştlərin tətbiqinə artıq başlanılıb. Bu müavinəti peşə, orta ixtisas və ali təhsil müəssisəsini bitirmiş və son 5 il ərzində azı 2 il əmək stajı olan və ölkəmizin işğaldan azad edilmiş ərazilərində əmək müqaviləsi əsasında çalışan işçilər ala biləcəklər.



Bütövlükdə, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında tətbiq olunan sosial güzəştlərin əhatə dairəsi kifayət qədər genişdir. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən "Yeni Azərbaycan"a verilən məlumatda bildirilir ki, Prezident İlham Əliyevin imzaladığı qanunvericilik aktları işğaldan azad edilmiş ərazilərimizdə məskunlaşaraq işləyənlər və işəgötürənlər üçün stimullaşdırıcı dəstək mexanizmlərinin, bir sıra güzəştlərin tətbiqini nəzərdə tutur. Onların sırasına işğaldan azad edilmiş ərazilərimizdə məskunlaşaraq işləyən mütəxəssislərə birdəfəlik müavinət ödənilməsi, aylıq vəzifə maaşlarına əlavələr hesablanması, hər il 5 gün əlavə məzuniyyət verilməsi, işəgötürənlər tərəfindən işçilər üçün ödənilən sosial sığorta haqlarının subsidiya formasında geri qaytarılması, əmək miqrasiyası sahəsində bir sıra güzəştlər daxildir. Sosial məzmunlu bu güzəştlər, həmçinin Qarabağ bölgəsində yaşayan və Azərbaycan vətəndaşlığını qəbul edən erməni sakinlərinə də şamil oluna bilər.

# "Etnik təmizləmə" kod adlı təbliğat iflasa uğrayır

24 saatlıq antiterror tədbirlərindən dərhal sonra yeni məkrli planlar quran Ermənistanın "etnik təmizləmə" təbliğatı da fiaskoya uğramaqdadır. Bu ölkənin baş naziri Paşinyan öz xoşu ilə, könüllü şəkildə Qarabağı tərk edən ermənilərin Ermənistana keçidini "etnik təmizləmə" kimi "dəyərləndirməklə" Azərbaycana qarşı yeni beynəlxalq təzyiq kampaniyasına start vermək niyyətində idi. Amma günlər keçdikcə bu planlar "suya düşür". Ermənin baş nazirin yalan iddiaları nəinki "ayaq tutub yerimir", hətta böyük dövlətlər tərəfindən açıq kontekstdə təkzib olunur.

## Faktsız iddialar...

Məsələn, ABŞ Dövlət Departamentinin sözçüsü Metyu Miller keçirdiyi brifinq zamanı Qarabağda baş verənlərlə bağlı çıxışında deyib ki, biz regiondakı vəziyyəti öyrənmək üçün təmasdayıq: "Əgər hər hansı vəhşilik törədilərsə və bununla bağlı sübutlar olarsa ona uyğun addımlar atmaqdan və bunu törədənlərin məsuliyyətə cəlb olunmasından çəkinməyəcəyik".

O bildirib ki, etnik təmizləmə və ya soyqırımı kimi iddialar faktlara əsaslanır və bu olmadan danışmaq doğru deyil: "Lakin, həmişə olduğu kimi, soyqırımı və etnik təmizləmə məsələlərində nəticə çıxarmaq sübutlara söykənən dolğun proses tələb edir. Hazırda bununla bağlı hər hansı nəticəyə vara bilməyəcəyəm".

ABŞ Dövlət Departamentinin sözçüsü, həmçinin diqqətə çatdırıb ki, Vaşinqton BMT missiyasının regiona səfər etməsini təqdirəlayiq hesab edir. Eyni zamanda, sözçü xarici siyasət idarəsinin Bakı və İrəvanı sülh danışıqlarına qayıtmağa təşviq etdiyini vurğulayıb.

Göründüyü kimi, ABŞ-ın mövqeyi açıq və birmənalıdır - bölgədə "etnik təmizləmə" ilə bağlı heç hansı bir iddia irəli sürmək üçün kiçik də olsa, sübut və ya fakt yoxdur. Laçın dövlət sərhəd buraxılış məntəqəsindən Ermənistana keçən ermənilərə qarşı yüksək humanizm nümayiş etdirilir - Azərbaycan polisi onların zəruri ərzaqla təminatına belə diqqət göstərir. Eyni zamanda, erməni sakinlərin keçidi zamanı onlarla edilən söhbətlər, bunları əks etdirən videoçəkilişlər bütövlükdə, prosesin şəffaf şəkildə inkişafını təmin edir. Keçid məntəqəsindən istifadə edən ermənilər özləri etiraf edirlər ki, onları heç kim Qarabağı tərk etməyə məcbur etməyib. Tam əksinə, Azərbaycan dövləti ermənilərin Qarabağda yaşaması üün bütün zəruri tədbirləri həyata keçirir.

## Rusiya da təkzib edir...

ABŞ-ın "etnik təmizləmənin" baş verməməsi ilə bağlı mövqeyi dünyanın əksər dövlətləri tərəfindən də bölüşülür. Məsələn, Rusiya dövləti də bir neçə gün öncə regionda baş verənlərə münasibət bildirmişdi. Rusiya Prezidentinin mətbuat katibi Dmitri Peskov "Birinci Kanal"a açıqlamasında Azərbaycanın Qarabağ iqtisadi rayonunda keçirilən yerli antiterror tədbirlərini şərh edərkən vurğulamışdı ki, Qarabağ Azərbaycanın daxili işidir. O, bildirmişdi ki, Azərbaycanın Qarabağdakı antiterror tədbirlərini etnik təmizləmə adlandırmağa heç bir əsas yoxdur.



Bundan başqa, bölgədə səfərdə olan BMT-nin missiyası da baş verənləri qiymətləndirir. KİV-in yaydığı məlumata görə, BMT-nin Azərbaycanın Qarabağ regionuna səfəri ilə yaydığı bəyanatda deyilir ki, Azərbaycan hökuməti Xankəndidə səhiyyə və digər məişət xidmətlərinin bərpasına hazırlaşır. Missiya burada yerli əhali və digər şəxslərlə söhbət edib, eləcə də səhiyyə və təhsil müəssisələrindəki vəziyyətlə yerindəcə tanış olublar. Missiya üzvlərinin Xankəndi şəhərində getdikləri yerlərdə mülki və ictimai infrastruktura, o cümlədən xəstəxana, məktəb, yaşayış binaları, mədəni və dini obyektlərə heç bir ziyan dəyməyib. Missiya, həmçinin Azərbaycan hökumətinin şəhərdə səhiyyə və digər məişət xidmətlərinin bərpasına hazırlaşdığını müşahidə edib. Missiya son atəşkəsdən sonra dinc əhaliyə qarşı zorakılıq halları ilə bağlı nə yerli əhalidən, nə də digər həmsöhbətlərdən şikayət daxil olmayıb.



## BMT missiyasına şikayət daxil olmayıb

Bütün bu faktlar isə onu göstərir ki, Azərbaycan nəinki bölgədə etnik təmizləmə siyasəti yürütməyə çalışır, tam əksinə reinteqrasiyanın daha da gücləndirilməsi yönündə açıq çağırışlar edir, addımlar atır. Bununla bağlı bəyan edilən istiqamətlər isə Qarabağın erməni sakinlərinin gələcək həyatlarını daha yüksək səviyyədə təminatlı, təhlükəsiz şəraitdə keçirmək imkanı qazanmalarını deməyə əsas verir. Ermənistanın "etnik təmizləmə" kod adlı təbliğatı isə beynəlxalq aləm tərəfindən ifşa edilir...

*PƏRVİZ*

# Zəngəzur dəhlizi açılacaq!

## İrəvan razılaşmasa da...

*Nardar BAYRAMLI*

Zəngəzur dəhlizinin açılması məsələsi gündəmin əsas mövzularından biridir. Xüsusilə, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Naxçıvandan qayıtdıqdan sonra verdiyi bəyanat xüsusilə diqqəti cəlb edir. Belə ki, Rəcəb Tayyib Ərdoğan bəyan edib ki, bu dəhliz Türkiyə və Azərbaycan üçün çox önəmlidir və tamamlanması vacib olan strateji məsələdir. “Türkiyə ilə Azərbaycan arasında qardaşlıq daha da möhkəmlənəcək. İrandan müsbət impulslar gəlir və bu, ümidvericidir”- deyən Türkiyə Prezidenti qeyd edib ki, Ermənistan bu yolu açmasa, İran ərazisindən keçəcək. Onun sözlərinə görə, İran indi buna müsbət baxır və ona görə də İran ərazisindən Azərbaycana daxil olmaq mümkündür.

İran tərəfindən də bu məsələyə reaksiya verilib. İranın Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Nasir Kənani Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Zəngəzur dəhlizinin açılmasının zəruriliyi barədə fikirlərinə münasibət bildirərkən deyib: “Biz regionun bütün ölkələrinin maraqlarını təmin edən kommunikasiyaların inkişafının tərəfdarıyıq. İran region dövlətlərinin arasındakı məsələlərin 3+3 formatında həll olunmasını istəyir və bölgəyə kənar qüvvələrin cəlb edilməsinin əleyhinədir”. N.Kənani qeyd edib ki, Azərbaycanın rəsmi şəxslərinin İrana səfəri hazırlanır: “Bu səfərlə bağlı işlər və danışıqlar aparılır. Ümid edirik ki, səfər baş tutacaq və Azərbaycanın İrandakı səfirliyi fəaliyyətini bərpa edəcək”.



“Rəsmi Tehran Qafqaz regionunda sülh və sabitliyin hökm sürməsində maraqlıdır və buna görə də bəyan etmişdik ki, İran işğal olunan Qarabağın Azərbaycana qaytarılmasının tərəfdarıdır”,-deyə o vurğulayıb.

Məlumdur ki, Zəngəzur dəhlizi Naxçıvanla Azərbaycanın əsas hissəsini birləşdirəcək. Bununla da Naxçıvanın 30 ildən çox davam edən blokadasına son qoyulacaq. Eyni zamanda, dəhliz fəaliyyətə başladıqdan sonra Azərbaycanın tranzit imkanları daha da genişlənəcək. Son illərdə Azərbaycan Avrasiyanın yeni nəqliyyat xəritəsini formalaşdırıb və hazırda bu geniş coğrafiyanın bütün əsas yolları məhz ölkəmizdə kəsişir. Zəngəzur dəhlizi bu bağlantıda yeni və çox mühüm həlqə təşkil edəcək. Dəhliz boyunca yaradılacaq dəmir və avtomobil yolları məhz ölkəmizin ərazisində Şərq-Qərb və Şimal-Cənub marşrutlarına inteqrasiya ediləcək. Dünyanın aparıcı dövlətləri və müvafiq beynəlxalq təşkilatlar da hesab edir ki, bu layihə Avropa ilə Asiya arasında ticarət əlaqələrini daha da genişləndirəcək. Hazırda dünyada baş verən mürəkkəb proseslər, xüsusilə Rusiya-Ukrayna müharibəsi bu ölkələrin ərazisindən gedən ticarət yolları üçün risk yaradır. Bu baxımdan, Zəngəzur dəhlizi təhlükəsiz marşrut kimi daha etibarlıdır. Digər tərəfdən, bu dəhliz Avropa ilə Asiya arasında məsafə baxımdan daha yaxın və tariflərə görə də sərfəli hesab edilir.

### İran kommunikasiyaların inkişafının tərəfdarıdır

Zəngəzur dəhlizinin açılması Ermənistan üçün faydalıdır. Bu ölkə dəhliz vasitəsilə həm iqtisadi dividentlər qazanacaq, həm də Zəngəzur dəhlizi regionda sülh və əməkdaşlığın möhkəmlənməsinə öz töhfəsini verəcək. Əgər rəsmi İrəvan bu yolun önəmini anlamırsa, yol İran ərazisindən keçəcək. Bununla bağlı rəsmi Tehranın razılığı göz önündədir. Bu amil bölgədə əməkdaşlığın genişləndirilməsi baxımından çox önəmlidir.

# Gənclərin inkişafı üçün

## Layihə və təşəbbüslərə yeni yanaşma gətirilməlidir




*Günel ABBAS*

Gənclər təşkilatlarının formalaşdırılması dövlətin gənclər siyasətinin əsas istiqamətlərindən biridir. Ölkə rəhbərliyi gənclər siyasətini prioritet hesab edir və bu siyasətin həyata keçirilməsi üçün müvafiq qərarlar qəbul edir. Təşkilatlar gənclərin birləşərək öz imkan və bacarıqlarını konkret istiqamətlər üzrə səfərbər etmələri üçün əvəzsiz mühitdir. Gənclər bu təşkilatlarda həm öz mənini axtarıb tapır, həm bir fərd kimi inkişaf edir, həm də vətəndaş cəmiyyətinin fəal iştirakçısı olurlar. Məhz bu səbəbdən gənclər təşkilatları ilə işin təşkili və bu istiqamətə dövlət qayğısı gələcək nəslin hərtərəfli inkişafını təmin edir.

Hazırda 300-dən artıq gənclər təşkilatı Ədliyyə Nazirliyində dövlət qeydiyyatındadır. Gənclər təşkilatlarının nizamnamə məqsədlərinə görə bir sıra fəaliyyət istiqamətləri var. Nizamnaməyə görə, təşkilatlar vasitəsilə gənclər Avropaya inteqrasiya və beynəlxalq mübadilə proqramlarında iştirak etmək hüququ qazanır. Eləcə də regionlarda yaşayan gənclərin sosial və təhsil problemlərinin həllində, vətənpərvərlik və vətəndaşlığın təşviq olunmasında iştirak edirlər.

Gənclər Birliyi Azərbaycanın ictimai-siyasi həyatında yaxından iştirak edir, mütəmadi olaraq sosial və ictimai layihələr həyata keçirir.

Yeni Azərbaycan Partiyasının Gənclər Birliyinin sədri Bəxtiyar İslamov “Yeni Azərbaycan”a açıqlamasında gənclər təşkilatlarının fəaliyyətindən və öhdəliklərindən danışıb. Onun sözlərinə görə, Gənclər Birliyi həyata keçirdiyi layihələrlə partiya gənclərinin qarşısına qoyulan məqsədə ən uyğun şəkildə çatmaqdadır: “Həyata keçirdiyimiz layihələrdə gənclərin mənəvi inkişafını diqqətdə saxlayırıq. Gənclərlə mütəmadi görüşlər, diskussiyalar keçirir, onlara vətənpərvərlik hisslərinin aşılanmasına çalışırıq. Bunlar hər biri fəaliyyət planına əsaslanaraq sistemli şəkildə həyata keçirilir. Prezident İlham Əliyevin gənclərimizlə bağlı səsləndirdiyi vacib bir fikir var, bu, gənclərimizin müasir dövrün yeniliklərinə bələd, savadlı, dünyagörüşlü, eyni zamanda, öz tarixi-milli kökünə bağlı şəkildə formalaşdırılmasıdır. Bu da YAP Gənclər Birliyi olaraq fəaliyyət prioritetlərimizin əsas özəklərindən birini, başlıca prinsipimizi təşkil edir. Belə ki, Azərbaycan gəncinin öz keçmişinə, ölkəsinə bağlı, vətənpərvər, dövlətçilik ənənələrinə sadiq, o cümlədən innovativ, yenilikçi yanaşmalara, dünyada baş verən rəqəmsal dəyişikliklərə reaksiya verə biləcək savadda və təhsildə formalaşması üçün fəaliyyətlər həyata keçiririk”.

**Azərbaycan gənci beynəlxalq arenada ölkəmizin təmsilçisidir**

B.İslamov bildirib ki, gənclərin öhdəlikləri bu günün reallığı ilə böyük və əhəmiyyətlidir: “Vətən müharibəsinə qədər Azərbaycan gənclərinin üzərinə düşən əsas vəzifənin işğal altında olan torpaqları azad etmək olduğunu qeyd edirdik. Ali Baş Komandanın rəhbərliyi ilə torpaqlarımızın işğaldan azad olunması gənclərin üzərinə də yeni missiya gətirdi. Ölkəmizin inkişafına töhfə vermək, Azərbaycanın bütövlüyünü qorumaq, onun xaricdə tanıdılmasında fəal iştirak etmək gənclərimizin yeni öhdəliklərindən bir neçəsidir. Ölkəmizdə fəaliyyət göstərən gənclər təşkilatlarının da üzərinə bu öhdəliklər düşür.

Azərbaycan gənci bu gün vətənpərvər olmaqla yanaşı, həm savadlı, həm də dövrün çağırışlarına uyğun inkişaf etməlidir. Bu mənada gənclər təşkilatları ənənəvi formada həyata keçirdikləri layihə və təşəbbüslərə yeni yanaşmalar gətirməlidirlər. Çünki məhz milli şüurumuzu özündə ehtiva edən layihələri yeniliklərlə əhatə edərək gənclərin diqqətini cəlb etmək mümkündür. Əgər belə olmasa, gənclər təşkilatları gələcəkdə müəyyən çətinliklərlə qarşılaşa bilərlər. Hesab edirəm ki, bəzi təşkilatlar bunu nəzərə alır və çevik addımlar atırlar. Eləcə də digər təşkilatlar lazımi addımlar atıb, vaxtında öz fəaliyyətlərində dəyişikliklər etməlidirlər”.

Sədr qeyd edib ki, xaricdə fəaliyyət göstərən diasporlarda gənclərin fəaliyyəti ön plana çıxarılmalıdır. “Çünki Azərbaycan gənci, eyni zamanda, beynəlxalq arenada ölkəmizin təmsilçisidir və xaricdə Azərbaycan həqiqətlərinin çatdırılmasında aparıcı şəxslərdən birinə çevrilə bilir. Xaricdə yaşayan Azərbaycan gəncləri düzgün və sağlam şəkildə birləşməlidir. Bu halda aktiv fəaliyyət göstərə bilərlər. Təbii ki, son illər Azərbaycan gənclərinin diaspor təşkilatlarda effektiv çalışmalarının şahidi oluruq. Bundan sonrakı dövrdə də gənclərin daha çox səy göstərəcəklərinə inanıram. Onu da qeyd etmək istərdim ki, ölkəmizdə fəaliyyət göstərən gənclər təşkilatları müxtəlif ölkələrdə yaşayan gənclərlə kommunikasiyalar quraraq bu istiqamətdə dəstək mexanizmi formalaşdıra bilərlər. Sonrakı mərhələdə artıq hər iki tərəf vahid bir məqsəd, Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması, ölkəmizin inkişafı üçün çalışmalıdır”.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə “Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi”nin maliyyə dəstəyi ilə “Gənc nəslin milli mənlik şüurunun inkişaf etdirilməsi və vətənpərvərlik hisslərinin tərbiyəsi” istiqaməti üzrə hazırlanmışdır**

# 3 saatlıq mühasirə...

## O anları unuda bilmərəm

*Günel ABBAS*

Torpaqlarımızın işğaldan azad olunması və ərazi bütövlüyünün bərpası naminə aparılmış Vətən müharibəsində minlərlə gənc qəhrəmanlıq və fədakarlıq nümayiş etdirib. Onların dastanlara sığmayan qəhrəmanlıqları nəticəsində Vətənimiz düşmən tapdağındam azad edildi. O günlərdə Azərbaycan əsgərinin hünəri qarşısında tab gətirə bilməyən düşmən silah-sursatını tullayaraq qaçmağa yer axtarırdı. Torpaqlarımızı düşmən tapdağından azad edən igidlərimizdən biri də Əliyev Kənandır.

Əliyev Kənan Əli oğlu 23 aprel 1993-cü ildə Bakı şəhərində anadan olub. Milli Qəhrəman Gültəkin Əsgərovanın adını daşıyan 200 №-li tam orta məktəbi bitirib. Ali təhsilini Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında alıb. 2013-cü ildə hərbi xidmətini N saylı xüsusi təyinatlı hərbi hissənin kəşfiyyat bölüyündə, kəşfiyyatçı, manqa komandiri vəzifəsində keçib. Hazırda Təhsil Respublika İdman Mərkəzinin 8 nömrəli uşaq-gənclər idman məktəbinin basketbol bölməsinin baş məşqçisidir.

**- Kənan, müharibəyə yollandığınız ilk günü necə xatırlayırsınız?**

- Bildiyiniz kimi, 28 sentyabr 2020-ci ildə Prezident Ali Baş komandan İlham Əliyev qismən səfərbərlik elan edilməsi haqqında sərəncam imzaladı. Mən də Azərbaycan oğlu kimi könüllü olaraq sentyabrın 28-də Nərimanov rayon hərbi komissarlığına getdim və oradan biz təlimlərə cəlb etdilər. 3 günlük təlimdən sonra Füzuliyə yola düşdük. Ardınca 29 oktyabrdan etibarən 3 aya yaxın Cəbrayıl, Qubadlı və Zəngilanda gedən döyüşlərdə iştirak etdim.

**- Vətən müharibəsində iştirakınızın ilk günlərindən xatirinizdə nələr qalıb?**

- Müharibənin ilk günlərindən ancaq torpaqlarımızı azad etmək uğrunda əlimizdən gələni etmək, Xocalının, şəhidlərimizin qisasını almağı düşünürdük. Mənim atam 1-ci Qarabağ müharibəsi veteranıdır. O, uşaqlıqdan mənə erməni sepatçılarının vəhşiliklərindən, hiyləgərliyindən çox danışmışdı. Bu səbəbdən mən bir növ psixoloji cəhətdən hazır idim.

**- Döyüş əməliyyatlarından daha çox yadınızda nə qalıb? Təkrar-təkrar xatırladığınız elə bir hadisə və ya an varmı?**

- 3 saatdan çox mühasirədə qaldığım anı unutmaq mümkün deyil. Həmin gün dərədə qalmışdıq, 2 nəfər idik. Birdən hər tərəfdən minamyotlardan durmadan atəş açıldı. Düşmən biz olduğumuz nöqtəni nişan almışdı. Bölük komandirimiz Məmmədov Fətullanın çevikliyi, dəqiqliyi və cəsarəti sayəsində mühasirədən çətinliklə də olsa, çıxa bildik.

Digər unudulmayan hadisə komandirimiz Qərib Baxşəliyevin dumanlı havada yolu azıb ermənilər tərəfə keçərkən əsir düşməmək üçün özünü gülləməsi idi. Bu hamımıza həm çox pis təsir etmişdi, həm də bir örnək olmuşdu. Onun bizə dediyi “kişiyə ürək, dosta kürək, bayrağa külək çox yaraşır” sözləri hər zaman yaddaşımızda qalacaq.

Bir məqamı da xatırlayıram. Bakıdan bir yerdə yola düşdüyümüz döyüş yoldaşlarımdan biri ailəli idi, bir qızı da var idi. Hər dəfə o, qızı haqqında danışanda deyirdi ki, şəhid olarsa, qızı böyüyəndə onunla fəxr edəcək. O belə danışanda hamımız kövrəlirdik. Əslində, yadda qalan və unudulmayan məqamlar çoxdur və düşünürəm ki, o anlar heç vaxt da unudulmayacaq.

### Biz hər an əmrə hazırıq!



**- Müharibə günlərində bütün Azərbaycan xalqının ürəyi ordumuzla birgə döyünürdü. Bəs ön cəbhədən baxdıqda arxa cəbhə necə görünürdü?**

- Döyüşlərdə olanda arxa cəbhədə həqiqətən bizə dəstək olan birinci valideynlərim, qardaşım, dayım və ən yaxın idmançı dostlarım idi. Yeni Azərbaycan Partiyası Səbail rayon təşkilatının sədri, əsgərlik dostum Riyad Rüstəmlini bu siyahıda xüsusi qeyd etmək istərdim. Ümumiyyətlə, arxa cəbhənin hər gün yeni ərazilərin işğaldan azad edilməsi haqqında xəbər gözləməsi bizi daha da ruhlandırırdı. Bu mənada 44 günlük müharibədə xalqımızın dəmir yumruq kimi birləşməsi Qələbəmizin əsas atributu idi.

**- Müharibənin başa çatması xəbərini günün hansı saatında və harada aldınız?**

- Müharibənin sona çatmasını Qubadlıda olarkən eşitdik. Gecə saatlarında postda Prezidentin çıxışını radio ilə dinləyirdik. Müharibənin bitməsinə baxmayaraq, sona qədər diqqətli olub xidmətimizə davam edirdik.

**- Qarşı tərəfin mənəvi-psixoloji durumu necə idi?**



- Qarşı tərəfi mənəvi-psixoloji durumu məğlub olmuş kimi idi. Ən əsası da onlar bilirdilər ki, haqq-ədalət bizim tərəfdədir və biz bizim olanı nəyin bahasına olursa olsun alacağıq. Qarşı tərəf sarsılmışdı, məğlub olacaqlarını çoxdan anlamışdılar. Azərbaycan ordusu 44 gün onlara kimin söz sahibi kim olduğunu göstərdi və sübut etdi.

**- Döyüş yoldaşlarınızdan şəhid yaxud qazi olduğu an keçirdiyiniz o ağır hissləri bir neçə cümlə ilə necə ifadə edə bilərsiniz?**

- Bu barədə danışmaq çox çətindir. Allah şəhidlərimizə rəhmət eləsin, qazilərimizə isə şəfa versin. Şəhidlər daim qəlbimizdə yaşayacaqlar.

**- Ölüm-dirim savaşında idiniz. Hər şey ola bilərdi. O zaman ağlınıza kimlər gəlirdi?**

- Əbəs yerə ana vətən demirlər. Vətən deyəndə ana, ana deyəndə vətən başa düşülür. O anlarda ən çox anam yadıma gəlirdi.

**- Qalib ordunun əsgəri kimi doğma elinə, evinə, yaxınlarına, dönmək nə dərəcədə qürurlu bir haldır və yaxınlarınız sizi geri dönərkən necə qarşıladı?**

- Evə axşam saatlarında çatdım. Düzü, mənə də sürpriz oldu. Ailəm başda olmaqla, qonşular, doğmalarım, qohumlarım, idmançı dostlarım, məhləmizdə üçrəngli bayrağımızla məni qarşıladılar. Qalib ölkənin, qalib ordunun müharibə veteranı olmaq qürurlu, sevincli bir hissdir.

Geriyə baxanda Allaha şükür edirəm ki, bu qələbədə az da olsa, mənim də əməyim var. Allah Ali Baş Komandan, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi qorusun, elə bu tribuna vasitəsi ilə bildirmək istərdim ki, bizlər hər zaman Ali Baş Komandanın yanındayıq, onun hər bir əmrinə hazırıq. Qarabağ Azərbaycandır!

# Cənubi Qafqazda sülh istəməyənlər...



## İlqar Vəlizadə: Azərbaycana təzyiqlər olsa da, əsas məqsəd Rusiyanı regiondan çıxarmaqdır

Qarabağda keçirilən lokal antiterror tədbirləri nəticəsində suverenliyimiz tam təmin edildikdən sonra müəyyən beynəlxalq dairələr ölkəmizə qarşı qərəzli kampaniyaya başlayıblar. Həmin dairələr dövlətimizi “etnik təmizləmə”də ittiham etməyə çalışsalar da, konkret faktlar ortaya qoya bilmirlər. Çünki Qarabağın erməni sakinləri könüllü olaraq Ermənistana gedib. Azərbaycan dövləti onlara heç bir təzyiq göstərməyib, əksinə qanunlarımız çərçivəsində vətəndaşlıq verməyə hazır olduğunu bəyan edib.

**Avropa Parlamentindən ənənəvi qərəz**

“Etnik təmizləmə” iddiasının əsassız olması faktı Qarabağda monitorinq aparan BMT missiyasının məlumatında da qeyd olunur. Bununla belə, erməniпərəst dairələr qarayaxma kampaniyasını aparmaqda davam edirlər. Ötən gün Avropa Parlamentdə aparılan müzakirələr, eləcə də Fransa parlamentində Azərbaycanla dostluq qrupunun ləğv edilməsi və bir qrup ABŞ konqresmeninin Prezident Baydenə müraciəti də bu qəbildəndir. Məsələ ilə bağlı qəzetimizə açıqlama verən politoloq İlqar Vəlizadə bildirib ki, Avropa Parlamenti dəfələrlə ölkəmizə qarşı qərəzli qətnamələr qəbul edib. Onun sözlərinə görə, bu kampaniya Qranada şəhərində Azərbaycan və Ermənistan liderlərinin nəzərdə tutulan görüşü ərəfəsində məqsədli olaraq təşkil edilib: “Bu dairələr istəmirlər ki, Cənubi Qafqazda sülh olsun. Münaqişə və ziddiyyətlər regional gündəmə müdaxilə etmək və onun gedişatına təsir etmək imkanı yaradır. Erməni lobbisi üçün bu, həm də öz mövcudluğuna haqq qazandırmaq üçün bir fürsətdir. Belə olmasaydı, Qarabağdakı proseslər niyə onları narahat edir? Avropanın erməniпərəst dairələri məqsədli şəkildə çalışırlar ki, sülh gündəmi pozulsun. İstəyirlər ki, Azərbaycana qarşı maksimum təzyiqlər göstərilsin”.

Politoloq Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin “Euronews” telekanalına müsahibəsinin açıq şəkildə Azərbaycanın haqlı mövqeyinə zidd olduğunu deyib: “Mişelin sözlərindən belə çıxır ki, antiterror tədbirlərimiz zamanı Rusiya sülhməramlıları Azərbaycan ordusuna qarşı vuruşub, erməni separatçıları müdafiə etməliydilər. Artıq bunu açıq deyirlər. Qranadada gözlənilən görüş ərəfəsində bu çox qərəzli yanaşmadır. Bu vasitəçilikdən biz nə gözləyə bilərik? Əslində, bütün bunların hamısı Rusiyaya qarşı hesablanıb. Məqsəd odur ki, Ermənistanda anti-Rusiya kursu daha da möhkəmləndirilsin. Ermənistana göstərmək istəyirlər ki, Rusiya sizi müdafiə etmir”.

**Fransa parlamentinin “dostluğu” formal idi**

Fransa parlamentinin Azərbaycanla dostluq qrupunu ləğv etməsinə gəlincə, İ.Vəlizadə hesab edir ki, belə bir qrupun olması bir “nonses” idi. Çünki Fransa parlamenti dəfələrlə Azərbaycana qarşı qərəzli qətnamələr qəbul edib, hətta Qarabağda qondarma rejimin tanınması üçün hökumətə müraciət edib. Belə bir qrup onsuz da formal xarakter daşıyırdı. Ona görə də, Azərbaycan parlementi tərəfindən də anoloji addımın atılması düzgündür. Biz burada heç nə itirmirik.

**ABŞ-ın bəzi konqresmenlərinin məqsədi nədir?**

Qeyd edək ki, oktyabrın 2-də ABŞ Konqresinin 75 üzvü prezident Co Baydenə müraciət ediblər. Həmin konqresmenlər ABŞ prezidentini Azərbaycana qarşı sanksiyalar tətbiq etməyə, Bakıya hərbi yardımı dayandırmağa, Qarabağdan “məcburi köçmüş” əhaliyə humanitar yardım göstərməyə və Laçın dəhlizində beynəlxalq müşahidəçilər yerləşdirməyə çağırıb. Konqres üzvlərinin ABŞ prezidenti Co Baydenə ünvanladığı məktubun təşəbbüskarları Nümayəndələr Palatasının keçmiş spikeri Nensi Pelosi və konqresmen Anna Eşudur. Bununla bağlı politoloq İlqar Vəlizadə deyib ki, bu, qeyri-obyektiv və ədalətsiz yanaşmasıdır. Onun sözlərinə görə, həmin konqresmenlər N.Paşinyanın anti-Rusiya kursuna dəstək verirlər: “Bu müraciətin Ermənistan parlamentinin Roma Statutunun ratifikasiyası ərəfəsində edilməsi təsadüfi deyil. Belə görüntü yaradılır ki, bu addım Azərbayacana qarşı yönəlib. Amma burada əsas hədəf Rusiyadır. ABŞ da istəyir ki, Rusiya Cənubi Qafqazdan çıxsın. Sadəcə, bunun üçün “Qarabağ erməniləri” kartından istifadə edirlər. Təbii ki, prosesdə Azərbaycana təzyiqlər var. Amma bunun arxasında daha böyük oyunlar oynanılır. Bu da Rusiyanın Ermənistandan sıxışdırılıb çıxarılmasıdır. Azərbaycanda Rusiyanın hərbi bazası yoxdur, Qarabağ bölgəsindəki Rusiya sülhməramlı kontingenti isə 2025-ci ildə ərazini tərk edəcəklər. Amma Ermənistanda Rusiyanın hərbi bazası mövcuddur, sərhədçilər var. Görünən odur ki, 1988-ci ildə baş verənləri təkrarlamaq istəyirlər. O vaxt SSRİ-nin dağılması üçün Qarabağ münaqişəsini başlatdılar. İndi də Rusiyanın Qafqazdan çıxarılması üçün planlar mövcuddur”.

Politoloqun fikrincə, ümumi mənzərə bundan xəbər verir ki, Ermənistan regionda geosiyasi oyunlar aparmaq üçün əvvəllər Rusiyanın alətinə çevrilmişdi, indi isə Qərbin, xüsusilə Fransanın alətinə çevrilib: “Burada Rusiya Ermənistanda Fransa, ABŞ kimi ölkələrlə rəqabətə girərək nüfuz davası aparır. Nəticədə regionumuzda vəziyyət qarışır. Yenə də, bu məntiqə gəlib çıxırıq ki, bölgədə sabitliyin pozulmasına səbəb olan Ermənistandır. Bu, həmişə belə olub və indi də davam edir. Tarix yenə də təkrar olunur, Ermənistan yenə də həmin rolu oynayır”.

*Nardar BAYRAMLI*

# Aİ-nin Ermənistana "səxavəti"

## Bu vəsait hansı məqsədlər üçün xərclənəcək?

*Nardar BAYRAMLI*

Ermənistan hakimiyyəti bir sıra beynəlxalq qurumlardan, o cümlədən Avropa İttifaqından maliyyə dəstəyi almaq üçün müxtəlif variantlara əl atır. Paşinyan hökuməti son vaxtlar regionda baş verən prosesləri bu məqsədi reallaşdırmaq üçün "fürsət" hesab edir.

Belə ki, baş nazir Nikol Paşinyan iki gün öncə Avropa İttifaqının Ermənistandakı nümayəndəliyinin yeni rəhbəri, səfir Vasilisi Maraqosla görüşərkən Ermənistan-Avropa İttifaqı əməkdaşlığının müxtəlif istiqamətlərində "irəliləyiş olduğunu" deyib. O, görüşdə məzlum obrazı yaradaraq qarşı tərəfdən əlavə maliyyə dəstəyi istəyib. Belə ki, Paşinyan Avropa İttifaqının Ermənistan üçün nəzərdə tutulan 2,6 milyard dollarlıq investisiya paketində nəzərdə tutduğu layihələrə yeni təkan verilməsinin "vacibliyini" söyləyib. Baş nazir buna səbəb kimi guya Qarabağdan Ermənistana köçən ermənilərə humanitar yardımların verilməsini göstərib. Paşinyan erməni xislətinə uyğun olaraq Qarabağ ermənilərinin Ermənistana könüllü getmələrini "məcburi deportasiya" adlandırıb.





Ermənistanın baş naziri Avropa Komissiyasının sədri Ursula Fon der Leyenlə də telefon danışığında eyni hiyləgər mövqe sərgiləyib. Erməni mediasının yaydığı məlumata görə, telefon söhbətində Qarabağ ermənilərinin Ermənistana köçməsindən sonra mövcud vəziyyət, Ermənistan-Avropa İttifaqı əməkdaşlığı gündəliyi ilə bağlı məsələlər müzakirə olunub. Tərəflər həm də bu həftə Qranadada keçiriləcək Avropa Siyasi Birliyinin sammiti çərçivəsində müzakirələri davam etdirmək barədə razılığa gəliblər.

Telefon danışığından sonra Avropa Komissiyasının sədri Ursula Fon der Leyen "X" mikrobloqunda qeyd edib ki, Avropa İttifaqı Ermənistana köçmüş Qarabağ ermənilərinə yardım etməkdə bu ölkənin yanındadır: "Biz Mülki Müdafiə Mexanizmini işə saldıq və 5,2 milyon avro dəyərində humanitar yardımı səfərbər etdik. Mülki müdafiə və humanitar yardım üzrə Avropa komissarı Yanes Lenarçiç gələcək ehtiyacları qiymətləndirmək üçün cümə günü Ermənistana gələcək".

Əslində, Avropa İttifaqı indiyə qədər də müxtəlif layihələr və proqramlar adı altında Ermənistana maliyyə yardımları edib. Ermənistana milyonlarla avro maliyyə vəsaiti ayrılsa da, ölkədə hökumət tərəfindən sosial və humanitar məsələlərlə bağlı hər hansı bir real layihənin həyata keçirilməsi müşahidə edilməyib. Ən azından əhalinin sosial durumunun ağır olması da bunu təsdiqləyir. Bütün bunlar, bu məsələdə siyasi maraqların olmasını göstərir. Bu baxımdan, Rusiyanın xarici işlər naziri Sergey Lavrovun "Ermənistanda Rusiyanı itirməyi, yeni dostlar qazanmağı arzulayanlar çoxdur" fikri diqqəti cəlb edir. Bununla Paşinyan hökumətinin Qərbə yönlənməsinə eyham vuran Lavrovun sözlərinə görə, tarixi, coğrafi və geosiyasi olaraq Rusiyanı itirmək, onun Cənubi Qafqazdakı maraqlarını tam rədd etmək mümkün deyil. O, Qərbə ümid edən ölkələrin sonrakı taleyini də xatırlatmağı unutmayıb.

Görünən odur ki, Avropa İttifaqının Ermənistana münasibətdə səxavət kisəsini açıq saxlamasında müəyyən maraqlar var. Paşinyan hökuməti bu maliyyədən varlanmağı düşünürsə, Avropa İttifaqının timsalında Fransa kimi ölkələr Cənubi Qafqazda möhkəmlənməyə çalışacaq. Bu məqsədə çatmaq üçün Ermənistan onlar üçün poliqon rolunu oynamaqdadır.

# Türkiyənin bütün ərazisində antiterror əməliyyatları keçirilir

Türkiyənin təhlükəsizlik qüvvələri bütün ölkə ərazisində "Kahramanlar" kod adı ilə miqyaslı antiterror əməliyyatına başlayıb.

Türkiyənin daxili işlər naziri Ali Yerlikaya bu barədə özünün sosial media hesabında yazıb.

"Səhər saat 8:30-a (Türkiyə vaxtı ilə) olan məlumata görə, ölkə ərazisində 466 antiterror əməliyyatı keçirilib. Əməliyyatlara təhlükəsizlik qüvvələrinin 13 min 440 əməkdaşı cəlb olunub.



Nəticədə Mersin, Van, Şanlıurfa, Mardin və Aydında 12 terrorçu həbs olunub, Diyarbakır, Qaziantep, İstanbul, Bursa, Batman, Dənizli, Adana, Kayseri, Antalya, Konya, Isparta və Kocaelidə isə 55 şübhəli saxlanılıb", - deyə Ali Yerlikaya bildirib.

Qeyd edək ki, Türkiyə ərazisində miqyaslı antiterror əməliyyatları PKK qruplaşmasının Ankarada Daxili İşlər Nazirliyinin binası qarşısında törətdiyi partlayışdan sonra başlayıb.

# Rusiya ilə bütün körpülər yandırıldı

## Moskvanın İrəvan rəhbərliyinə sualları var

Ötən gün Ermənistan parlamenti Roma Statutunu ratifikasiya edib. Müxalifətin boykot etdiyi parlament iclasında hakim partiya nümayəndələri bu sənədin Rusiyaya qarşı yönəlmədiyini iddia ediblər. Amma məlumdur ki, Ermənistan Roma Statutuna qoşulduqda Beynəlxalq Cinayət Məhkəməsinin çıxardığı qərarlar bu ölkə tərəfindən də icra olunmalıdır. Hələ İrəvan bu barədə niyyətini bəyan etdikdə Rusiya XİN açıqlama yayaraq Ermənistanın bu qərarının qəbuledilməz olduğunu bildirmişdi. Belə ki, Beynəlxalq Cinayət Məhkəməsi mart ayında Rusiya Prezidenti Vladimir Putini Ukraynada törədilmiş hərbi cinayətlərə görə cavabdeh olmaqda ittiham edərək həbsinə order verib. Putin Ermənistana səfər edərsə, Roma Statutuna əsasən, bu ölkədə həbs olunmalıdır. Ona görə də Rusiya rəsmiləri məsələ ilə bağlı Ermənistandan izahat tələb ediblər. Rusiya Federasiya Şurasının vitse-spikeri Yuri Vorobyov deyib ki, Ermənistan parlamentinin Roma Statutunu ratifikasiya etməsi V.Putinə qarşı qeyri-dost addımdır. Onun sözlərinə görə, erməni parlamentariləri qərarı Parlamentlərarası Komissiyanın işi çərçivəsində formalaşmış konstruktiv və inamlı münasibətləri məhv edir.



Xatırladaq ki, Beynəlxalq Cinayət Məhkəməsinin Roma Statutu (Roma Əsasnaməsi) 15 iyun 1998-ci il və 17 iyul 1998-ci il tarixləri arasında Birləşmiş Millətlər Təşkilatı Konfransının İtaliyanın paytaxtı Romada qəbul etdiyi Beynəlxalq Cinayət Məhkəməsinin Qurulması haqqında sənəddir. Sənədi 139 dövlət imzalasa da, 124 dövlət ratifikasiya edib. Ermənistan isə 125-ci olacaq. Rusiya Roma Statutunu imzalasa da, parlamentdə təsdiqləməyib. Ardınca, 2016-cı ilin noyabrında prezident Putin Rusiyanın Roma Statutunda iştirakdan imtinası ilə bağlı sərəncam imzalayıb.

Qeyd edək ki, Roma Statutunun təsir dairəsi dörd əsas beynəlxalq cinayətlə formalaşır: soyqırımı, insanlığa qarşı cinayətlər, müharibə cinayətləri və təcavüz cinayətləri. Bu cinayətlərə heç bir məhdudiyyət tətbiq olunmur. Roma Əsasnaməsinə görə, Beynəlxalq Cinayət Məhkəməsi, dövlətlərin özlərinin həll etməkdə çətinlik çəkdiyi və müdaxilə etmək istəmədiyi vəziyyətlərdə yalnız dörd əsas beynəlxalq cinayətin araşdırmasını apara bilər. Məhkəmənin yurisdiksiyası yerli məhkəmələrin səlahiyyətləri ilə ziddiyyət təşkil etmir. Məhkəmə yalnız cinayətlərin hər hansı iştirakçı dövlətin ərazisində və ya iştirakçı dövlətin vətəndaşı tərəfindən törədildiyi təqdirdə səlahiyyətlərə malikdir. İstisna olaraq, Beynəlxalq Cinayət Məhkəməsinin yurisdiksiyası BMT Təhlükəsizlik Şurası tərəfindən icazə verildiyi təqdirdə, bəzi beynəlxalq cinayətlərə də aid ola bilir.

Rəsmi İrəvan iddia edir ki, bu sənədin ratifikasiyasının Putinin həbsi ilə əlaqəsi yoxdur, sadəcə, Ermənistanın təhlükəsizliyi ilə bağlıdır. Bu yaxınlarda Paşinyan açıq şəkildə bildirdi ki, artıq Ermənistan öz təhlükəsizliyini Rusiyaya etibar etmir. Belə bir şəraitdə Rusiya ilə Ermənistan arasında gərginliyin artması ehtimalı böyükdür. Nəzərə alaq ki, oktyabrın 13-də Qırğızıstanın paytaxtı Bişkek şəhərində MDB ölkələri liderlərinin sammitinin keçirilməsi nəzərdə tutulur. Ermənistanın Roma Statutunu ratifikasiya etdikdən sonra bu sammitdə hansı üzlə iştirak edəcək? Nikol Paşinyan Vladimir Putinlə üz-üzə gələ biləcəkmi? Bu məqam aydındır ki, Rusiya rəsmi İrəvanın bu addımını cavabsız qoymayacaq və qoymayıb da...

Kremlin rəsmi nümayəndəsi Dmitri Peskov Ermənistan parlamentinin Beynəlxalq Cinayət Məhkəməsinin Roma Statutunu ratifikasiya etməsinə münasibət bildirərkən deyib ki, Ermənistanın Roma Statutunu ratifikasiya etməsi ikitərəfli münasibətlər baxımından yanlış addımdır: "Rusiya Ermənistan xalqını qardaş hesab edir, lakin Moskvanın bu ölkənin rəhbərliyinə sualları var. Kreml istəmərdi ki, Vladimir Putin nə vaxtsa Ermənistana səfərdən imtina etməli olsun" - deyə o əlavə edib.

**NARDAR**

# Şəxsiyyət qüsurlu olanda...

## Müqayisələr və düşüncələr də qüsurlu olur

Redikül müxalifətin qərəzi və qısqanclığı heç kimə sirr deyil. Amma son proseslərə - antiterror tədbirləri nəticəsində 30 ilə yaxın torpaqlarımızda mövcud olmuş qeyri-qanuni xuntanın diz çökdürülməsinə nəzərən bu qısqanclığın və qərəzin bir kənara qoyulması vacib idi. Təbii ki, düşüncəsi, məntiqi, təfəkkürü yerində olan, qüsursuz şəxsiyyətə malik, içində Vətən, xalq, torpaq sevgisi daşıyan hər bir şəxs bu günlərdə bu böyük sevinci paylaşır. Müxalifətin ayrı-ayrı nümayəndələri belə Müzəffər Ali Baş Komandanın apardığı siyasəti təqdir edir, bütün işlərin zərgər dəqiqliyi ilə yerinə yetirildiyini önə sürür...

... Belə bir məqamda siması(zlığı)nı yenidən efirlərə daşıyaraq xalqa kin, dövlətə nifrət aşılayan Əli Kərimli öz ampluasındadır. "Toplum TV"-yə müsahibəsi Əli Kərimlinin bütün qüsurlarını - həm şəxsiyyət kimi, həm siyasətçi kimi, həm də bir azərbaycanlı kimi qüsurlarını açıb ortaya qoydu. Ə.Kərimli bu müsahibədə özündən qaça bilmədi və qaragüruh mahiyyətini bütünlüklə ifşa etdi.

İlk növbədə müsahibənin əvvəlində Ə.Kərimlinin psixoloji gərgin durumda olduğu nəzərə çarpır - bu təbiidir, özünütəkzib vaxtı gəlib çatıb. Bundan qaçmaq istəyi Ə.Kərimlinin müsahibə zamanı düşdüyü rəzil durumu - "kliniki siyasi ölümü" gerçəkləşdirdi.

Əli Kərimli deyir ki, bu məsələ (suverenliyin bərpası - red) İlham Əliyevin vaxtında həll olunacaqsa, Azərbaycan hakimiyyəti, İlham Əliyev bundan faydalanacaq - birincisi, məsələ yox, məsələlər artıq öz həllini tapıb. Azərbaycan qarşıya qoyduğu bütün hədəflərə böyük hərflərlə ÇATIB. O ki qaldı, faydalanma məsələsinə, baş verənlərdən - suverenliyin bərpasından, ərazi bütövlüyünə nail olunmasından Azərbaycan xalqı faydalanacaq. Azərbaycan Prezidenti 3 ildir ki, döyüş meydanında, diplomatik masa arxasında bu qələbəni ilmə-ilmə hörür. Ondan öncə isə 17 il geosiyasi situasiyanı dəyişmək üçün bütün gücünü səfərbər etmişdi. İqtisadi sferada, hərbi müdafiənin təşkili müstəvisində ildən-ilə artan imkanlar, beynəlxalq əlaqələrin düzgün və keyfiyyətli şəkildə, pafosdan kənar qurulması, yeni enerji siyasətinin milli maraqlara uzlaşdırılması, hərbi vətənpərvərliyin gücləndirilməsi, bununla paralel olaraq qaçqın və məcburi köçkünlərin sosial şəraitinin yaxşılaşdırılması... Azərbaycan hakimiyyəti Prezident İlham Əliyevin rəhbərliyi ilə bütövlükdə bu prosesi qüsursuz, zərgər dəqiqliyi ilə həyata keçirdi. Niyə də indi bu prosesdən faydalanılmamalıdır ki? 2020-ci ildəki böyük Zəfər, 2023-cü ildəki tarixi nailiyyət Prezident İlham Əliyevin əməyinin, zəhmətinin bəhrəsidir. Azərbaycan Ordusunun təkmilləşdirilməsi, müasirləşdirilməsi, yeni silahların alınması, yeni strateji imkanların araşdırılması və döyüş taktikalarının mənimsənilməsi birbaşa İlham Əliyevin diqqət mərkəzində idi. Prezident İlham Əliyevin hakimiyyətdə olduğu 20 ili bütövlükdə, Azərbaycanın güclənməsinə, geosiyasi dayaqlarının möhkəmlənməsinə, iqtisadi imkanlarının artmasına, dünyada tolerant bir ölkə kimi tanınmasına, ən əsası Cənubi Qafqazda lider statusu qazanmasına həsr olunub. Əli Kərimlinin təmsil olunduğu hakimiyyət isə bir ildə ölkəni nə günə qoymuşdu? Təsəvvür belə etmək istəmirik ki, bu hakimiyyət 1 il də davam etsəydi, nələr baş verərdi...

2016-cı il döyüşlərini belə "öz adı ilə" bağlamağa çalışan Əli Kərimlinin rəzilliyi burada da özünü göstərir - haqqı deməyə cəsarəti çatmır, yalanlarla özünü ön plana çıxarmağa çalışır. Bir balaca partiyanı belə idarə etmək qabiliyyəti olmayan Ə.Kərimli aprel döyüşlərini "özü ilə bağlı xatirələrə" calamaq istəyir...

Prezident İlham Əliyev böyük siyasi ustalıqla regionda yeni geostrateji vəziyyət formalaşdırdı. Əli Kərimlinin yaşadığı şəxsiyyət qüsuru bunu inkar etməyə cəhdlər göstərir - müsahibəni aparan jurnalistin Əli Kərimlinin yalanlarını təkzib etməsi, sözün kəsərək replika verməsi, düzəliş səsləndirməsi AXCP sədrini "əsəbləşdirir". O görür ki, cəmiyyət artıq bu kimi yalanlara açıq reaksiyalar göstərir.

Kərimli müsahibəsində Paşinyanı tərifləməkdən doymur - hətta siyasi gülünclüklə Rusiya Prezidentinin "illərlə" Paşinyanı "devirmək" cəhdləri göstərdiyini deyir. Ermənistan adlı dövlət isə yalnız və yalnız "for-post" statusuna malikdir və onun nə ordusu, nə iqtisadi resursları, nə daxili imkanları, hətta cəmiyyəti belə "özünün deyil". Başqa sözlə, Paşinyanı "devirmək istəyib də, devirə bilməmək" ideyası yalnız gülüş doğurur. Sadəcə Ə.Kərimli etiraf etmək istəmir ki, Prezident İlham Əliyev ötən bu illər ərzində bütün siyasi paytaxtlarla münasibətləri ən yüksək səviyyəyə çatdırmışdı. Milli maraqlara əsaslanan xarici siyasət kursumuz əməkdaşlığı, tərəfdaşlığı və iqtisadi imkanların bərabər araşdırılmasını təlqin edirdi. Prezident İlham Əliyev YENİ ƏSRİN LİDERİdir. Ötən yüzilliyə dolaşıb qalmış Əli Kərimlinin siyasi təfəkkürü bunu dərk etmək qabiliyyətində deyil.

Gələk Kərimlinin "ikinci obyektiv faktor" olaraq irəli sürdüyü Türkiyənin son illərdə böyük regional gücə çevrilməsi məsələsinə. Bəli, Türkiyə son illərdə böyük regional gücə çevrilib və bu şübhəsizdir - sadəcə Ə.Kərimli burada Azərbaycan faktorunu unudur. Prezident İlham Əliyevin səyləri, ortaya qoyduğu iradə və mövqe Türkiyə - Azərbaycan qardaşlığını ən yüksək zirvəyə daşıdı. Avropanın enerji təhlükəsizliyində Türkiyə-Azərbaycan birliyinin oynadığı rol Ankaranın Qərbdəki mövqelərini bərkitdi. Azərbaycan - Türkiyə qardaşlığının antiterror, təhlükəsizlik məsələlərindəki baxış bucaqlarının uzlaşdırılması, Azərbaycan-İsrail-Türkiyə əməkdaşlığının daha da irəliyə aparılması Yaxın Orta Şərqdə Türkiyə faktorunu daha da qabartdı. Türkiyə bu gün dünyanın ən real güclərindən biridir və Azərbaycanın strateji müttəfiqidir.

Əli Kərimli 1993-cü ildə AXC-Müsavat hakimiyyəti tərəfindən Kəlbəcərin boşaldılmasına diqqət çəkir - oradakı əhalini çıxarmaq üçün AXC-Müsavat hakimiyyətinin başçısı Əbülfəz Elçibəyin mülki vertolyot xahişinin geri çevrilməsini "F-16"-ları Gəncə aeroportunda üzü İrəvana tərəf saxlanması ilə müqayisə etməyə çalışır. Süleyman Dəmirəli Rəcəb Tayyib Ərdoğan ilə müqayisə edir. AXCP sədri nə üçün vertolyotu istəyən şəxslə, "F-16"-ların Azərbaycana gəlişini təmin edən Prezidenti müqayisə etmir? Türkiyənin hərbi imkanlarının genişlənməsinin bizə üstünlük qazandırdığını deyən Ə.Kərimli niyə açıqlamır ki, bu əlaqələri inkişaf etdirən, strateji zirvəyə daşıyan, "bayraqdarları" Bakıya gətirən Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə lideri idi...

Və gələk ən maraqlı məqama... Əli Kərimli bizim qələbəmizi öz qısır düşüncəsi ilə "təhlil edən" zaman bildirir ki, bizimlə Ermənistan arasındakı əhali və ərazi nisbəti, təxminən Rusiya ilə Ukrayna kimidir: "bir anlıq düşünün ki, Ukraynaya kömək olmasaydı xaricdən, Ukrayna nə qədər dözərdi. Rusiyanın qarşısında. Biz də Ermənistandan 3-4 dəfə güclü dövlətik". Bu da əlahəzrət təkzibolunmaz fakt - Əli Kərimli nə danışdığını artıq dərk etmək qabiliyyətini itirib, özünü və "fikirlərini" təkzib edir. Ukraynanı işğalçı Ermənistanla müqayisə edir... Bu da AXCP sədrinin "siyasi fəhmi". Necə deyərlər, kor atın, kor nalbəndi...

Elçibəy hakimiyyəti dövründə Qarabağdakı fəaliyyətlərinə toxunan Kərimlinin iddiaları da özünütəkzibdir. Axı, özü etiraf edirdi ki, Elçibəy Dəmirəldən "mülki əhalini çıxarmaq üçün vertolyot" istəyirdi - niyə hücum etmək üçün silah-sursat, vertolyot istəmirdi?

**P. İSMAYILOV**

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**"Yeni Azərbaycan" qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

Azərpoçt Poçtdaşıma Mərkəzi - 0125984955, 0552004544
Azərmətbuat ASC - 0124411991, 0124404694
Səma MMC - 0125940252, 0503336969
Pressaİnform MMC - 0703400100, 0504560835
Qaya MMC - 0125667780, 0502352343
Qasid MMC- 0124931406, 0124938343
F.Ş.Ruhid Hüseynov - 0124349301, 0505357898

"Türküstan Media Group" MMC – 050 241-48-23
"Region Press" MMC – 055 316-79-01
Ziya LTD - 0124977696, 0503067744

**01.01.2024-cü il tarixdən etibarən qəzetin qiyməti 0,60 AZN təşkil edəcək.**
**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**







## "Nar" metroda şəbəkəsini gücləndirir

"Nar" üstün müştəri təcrübəsinin təqdim edilməsi məqsədilə metro ərazisində təkmilləşdirmə işləri aparıb. Bunun nəticəsində Bakı metrosunda zəng və internet xidmətinin keyfiyyəti dəfələrlə yüksəldilib.

Aparılmış təkmilləşdirmə işləri şirkətin müştəri məmnuniyyəti strategiyasının ayrılmaz hissəsidir. "Nar"ın əsas məqsədi abunəçilərini daima diqqət mərkəzində saxlamaqla onlara sərfəli şərtlərlə yüksək keyfiyyətli xidmətlərin təqdim edilməsidir.

"Nar" hazırda 2,2 milyon abunəçiyə yüksək keyfiyyətli rabitə xidmətləri göstərməkdədir. "Nar" son 4 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.

# Onları xilas edək!

*Günel ABBAS*

4 Oktyabr - Heyvanların Beynəlxalq Müdafiəsi Günü kimi hər il qeyd olunur. Heyvanların müdafiəsinə ciddi yanaşmaq lazımdır ki, onlarla birlikdə bizi yaşadan təbiət də məhv olmasın.

Nəsli kəsilməkdə olan heyvan sayı ilbəil artır. Təkcə Azərbaycanda 1989-cu ildə nəşr edilmiş "Qırmızı kitab"a 188 heyvan adı daxil edilmişdisə, 2013-cü ildə kitabın yenidən nəşrində 223 heyvan növü yer aldı. İqlim dəyişiklikləri, insanların təbiətə və heyvanlara laqeyd yanaşması, öz mənafeləri naminə heyvanların öldürülməsi "Qırmızı kitab"a düşən növlərin sayını artırır. Məhz bu səbəbdən Dünya Heyvanların Müdafiə Günü insanların heyvanlara qarşı qəddarlığını dayandırmaq, hər bir canlının layiq olduğu həyatı yaşaması üçün cəmiyyəti bu haqda maarifləndirmək məqsədilə heyvan hüquqları və rifahını qeyd edən xüsusi bir gündür. Heyvanların Beynəlxalq Müdafiəsi Günü orta əsr İtaliyasında heyvanların himayədarı olaraq tanınan müqəddəs Fransiskin vəfat etdiyi gün - 4 oktyabr seçilib.

Heyvanların qorunmasına həsr edilmiş bu tarixdə hazırda nəsli kəsilməkdə olan heyvanların bir neçəsi haqqında məlumat verərək bu mövzuda insanları maarifləndirmək bizim borcumuzdur:

**1. Panda:**

Çinin dağ meşələrində yaşayan hər kəsin sevimlisi pandalar hazırda ovçuluq, meşələrin qırılması kimi səbəblərdən nəsli kəsilməkdə olan heyvanlar sırasına daxildir. Pandalar daha çox bambuk ağacının yaşıl yarpaqları ilə qidalanırlar və həyatda qalmaq üçün 12 saat ərzində kütlələrinin 15 faizi qədər qidalanmalıdırlar. Lakin meşələrin qırılması fonunda bu qida ehtiyatı kifayət etmir.

**2. Pələng:**

Pişikkimilər fəsiləsinə aid olan və ecazkar gözəlliyi ilə insanları heyran edən Sumatra pələnginin nüfuzu 100 il bundan əvvəllə müqayisədə xeyli azalıb. Bir əsr bundan əvvəl bu pələnglərin yayılma arealı ilə indiki əraziləri müqayisə etsək, 95 faizə qədər azaldığını müşahidə edə bilərik. Bunun ən əsas səbəbi isə ağac kəsmə və antropogen təsirdir. Pələnglər nəsli kəsilməkdə olan heyvan siyahısına daxil olduqdan sonra siyahıdakı digər heyvanlar kimi qorunma altına alındı və bunun nəticəsində də sözügedən pələng nüfuzunda xeyli artım müşahidə olundu.

**3. Mavi balina:**

Təbiətdə yaşayan ən böyük canlı kimi bilinən mavi balinalar XX əsrdə insanların laqeydliyi nəticəsində demək olar ki, məhv oldu. Buna əsas səbəb isə dənizlərin çirklənməsi və dənizin səs-küy fonunun artmasıdır. Dənizlərin çirklənməsi bütün balıq növlərini təhlükəyə atan və tez zamanda qarşısı alınmalı olan çox vacib bir səbəbdir. Digər tərəfdən, dənizin səs-küy fonunun artması balinaların səs siqnalları ilə bir-birini tapmasını çətinləşdirir və bu da cütləşmə mövsümündə tərəfdaş tapmağı xeyli qəlizləşdirir.

**4. Asiya fili:**

Cazibədar görünüşü və fərqliliyi ilə diqqəti cəlb edən Asiya fillərinin hazırda fil sümüyünə görə ovlanmaları, sirklərdə insanları əyləndirmək üçün istifadə edilmələri və yaşayış yerlərinin məhv edilmələri onların nəsli kəsilməkdə olan heyvanlar siyahısına daxil olmalarının əsas səbəbləridir. Buna görə də 1986-cı ildən bəri Asiya fili Beynəlxalq "Qırmızı Kitab"a nəsli kəsilməyə yaxın bir növ olaraq daxil edilib.

**5. Ağ ayı:**

Şimal Buzlu okean sahillərində yaşayan və rənginin gözəlliyi ilə fərqlənən ağ ayılar son dövrlərdə daha da artan iqlim dəyişikliklərinə və ətraf mühiti çirkləndirən neft quyularının işlənməsinə görə nəsli kəsilməkdə olan heyvanlar siyahısındadır. Belə ki, aparılan araşdırmalara əsasən, iqlim dəyişikliklərinə görə qütb buzlaqlarının əriməsi davam etsə, 80 il ərzində ağ ayıların nəsli kəsiləcəkdir.

Bu siyahını daha da artırmaq, təəssüf ki, mümkündür. Hər biri möhtəşəm görünüşə və heyratamiz qabiliyyətlərə sahib olan bu heyvanların təbiətdən silinəcək olması çox təəssüfedici haldır. Nəsli kəsilən hər bir canlı təbiətimizdə ağır yaralar açır. Bunun qarşısının alınması isə onlara ən çox ziyan vuran bizlərə düşür. Bir çox ölkələrdə heyvanların qorunması üçün addımlar atılıb. Məsələn, Avstriyada heyvanlar haqqında bir sıra qanunlar qəbul edilib. Bu qanunlara əsasən, toyuqları dar qəfəsdə saxlamaq, itlərin quyruğunu və qulaqlarını kəsmək, bağlamaq və digər heyvanlara qarşı edilən qəddarlıqlar cinayət hesab olunur və ağır şəkildə cəzalandırılır. Bununla bağlı bir çox ölkələrdən misallar gətirə bilərik. Ölkəmizdə də heyvanların qorunması üçün qanunlar qəbul edilib və ciddi addımlar atılıb. Dünya ölkələrinin bu məsələyə ciddi yanaşması təqdirəlayiqdir.

Onları qorumaq bizim borcumuzdur, çünki heyvanları qorumaq təbiətimizi, dünyamızı qorumaq deməkdir.




**Heyvanları qorumaq təbiəti qorumaqdır**

*İdman*

## Avropa Liqası: "Qarabağ"ın oyunu avstriyalı hakimlərə tapşırılıb



UEFA Avropa Liqasının qrup mərhələsində İsveçdə "Hekken" və "Qarabağ" komandaları arasında II tur oyununun hakim təyinatları açıqlanıb.

AZƏRTAC qitə futbol qurumunun rəsmi saytına istinadən xəbər verir ki, matçı Avstriyadan olan hakimlər briqadası idarə edəcək.

Görüşün baş hakimi Sebastyan Gishamer olacaq. Ona yan xətt hakimləri Roland Ridel və Santino Şrayner köməklik edəcəklər.

Dördüncü hakim funksiyasını Ştefan Ebner yerinə yetirəcək. VAR hakimi Kristian-Petru Çokirka, onun köməkçisi isə Aleksandr Harkam olacaq.

Qeyd edək ki, oktyabrın 5-də "Ullevi" stadionunda keçiriləcək "Hekken" - "Qarabağ" oyunu Bakı vaxtı ilə saat 23:00-da başlayacaq.

## Azərbaycan Üzgüçülük Federasiyasının vitse-prezidenti beynəlxalq mükafat alıb

Azərbaycan Üzgüçülük Federasiyasının vitse-prezidenti Mark Koqanova Beynəlxalq Üzgüçülük Şöhrət Zalının (ISHOF) Su İdmanı Mükafatı təqdim olunub.

Federasiyanın mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, qurum hər il su idmanının inkişafına böyük töhfələr verən şəxsləri və ya təşkilatları mükafatlandırır.

Bu ilin qalibləri sırasında rəqabətli üzgüçülük üzrə Mayk Ancer, dalğıc idman növü üzrə Elli Smart, bədii-sinxron üzgüçülük üzrə Maria Xose Bilbao Brunel, su təhlükəsizliyi üzrə Cullen Cons və istirahət üçün üzgüçülük üzrə Sofiya Forte, su polosu üzrə isə Azərbaycan Üzgüçülük Federasiyasının vitse-prezidenti M. Koqanov da var. Mükafatların təqdimetmə mərasimi Beynəlxalq Üzgüçülük Şöhrət Zalının ABŞ-ın Florida ştatının Fort Lauderdeyl şəhərində yerləşən qərargahında baş tutub.

Mark Koqanov su polosu karyerasına 1982-ci ildə idmançı kimi Azərbaycan milli komandasının tərkibində başlayıb. Daha sonra o, su polosu hakimi olub və 1998-ci ildən bu günə qədər 300-ə yaxın beynəlxalq oyun və ABŞ-ın müxtəlif konfranslarında 1500-dən çox kollegial matçda hakimlik edib. M. Koqanov su idman növləri üzrə çoxsaylı vəzifələrdə, o cümlədən su polosu yarışlarının direktoru, su yarışlarının meneceri, həmçinin bu idman növündə inzibati vəzifələrdə çalışıb. O, 2012-ci ildən Azərbaycan Üzgüçülük Federasiyasının vitse-prezidentidir. M. Koqanov 2016-cı ildən Avropa Su İdmanı Federasiyasının üzvüdür. O, həmçinin 2017-2022-ci illərdə FINA Su Polosu Texniki Komitəsinin sədr müavini olub.



## İdmançılarımızın növbəti reytinq cədvəli açıqlanıb

Gənclər və İdman Nazirliyi Olimpiya idman növləri üzrə milli komandaların üzvlərinin oktyabrın 1-nə olan reytinq cədvəlini açıqlayıb.

Nazirliyin mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, siyahının ilk pilləsində bədii gimnast Zöhrə Ağamirova qərarlaşıb. Onun aktivində 610 xal var.

Bədii gimnastika üzrə qrup hərəkətləri komandası 540 xalla ikincidir. Stend atıcılığı üzrə qarışıq yığma (MİX) isə üçüncü sırada yer alıb.

Qeyd edək ki, reytinq xallarının hesablanması Gənclər və İdman Nazirliyi tərəfindən müəyyən edilmiş qaydalara əsasən aparılır. Növlər üzrə beynəlxalq yarışlar öz reytinqinə əsasən 5 kateqoriyaya bölünür və həmin yarışlarda tutulan yerlərə uyğun olaraq xallar hesablanır.

## "Sabah" klubunun futbolçusuna 4 oyunluq cəza verilib



AFFA İntizam Komitəsinin növbəti iclası keçirilib.

AZƏRTAC Peşəkar Futbol Liqasının rəsmi saytına istinadən xəbər verir ki, iclasda Premyer Liqanın VIII turunda qeydə alınan qayda pozuntularına hüquqi qiymət verilib.

"Səbail" - "Sabah" matçında (2:2) hər iki komandadan 4 futbolçu sarı vərəqə aldığına görə klublar ayrı-ayrılıqda 700 manat cərimə ediliblər.

Bundan başqa, görüşün 90+4-cü dəqiqəsində qonaq komandanın müdafiəçisi Boyan Letiç hakimi təhqir etdiyinə görə birbaşa qırmızı vərəqə aldığı üçün ikisi şərti olmaqla 4 oyun cəzalanıb, klubunu isə 3000 manat ziyana salıb.

"Kəpəz" - "Qəbələ" oyununda (0:1) 5 futbolçusu sarı vərəqə alan qonaq komanda 700 manat cərimə ödəməli olacaq. Oyun vaxtı "Kəpəz" klubunun azarkeşləri tərəfindən rəqib komandanın texniki zonası istiqamətində kənar əşya atıldığına görə Gəncə təmsilçisi 800 manat cərimələnib. Həmçinin qarşılaşma bitdikdən sonra meydançaya kənar şəxslər daxil olduğuna görə "Kəpəz" klubu əlavə 800 manat cərimə edilib.

"Araz-Naxçıvan" - "Zirə" oyununun (1:0) 90+4-cü dəqiqəsində meydan sahibi komandanın futbolçusu İqor Ribeyro ikinci sarıdan qırmızı vərəqə aldığına görə 1 oyun cəzalanıb, klubu isə 500 manat cərimə olunub.


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyov - 66
Telefonlar:
**598-37-76, 498-82-21**
**498-81-24, 498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 7276**
**Sifariş: 2582**
"Kapital Bank"ın Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Günel Abbas